HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 49 (689) ■ 18 dekabr 2013 www.vergiler.az Qiyməti: 40 qəp.

# "Şahdəniz-2" layihəsi dünyada ən iri enerji layihəsidir

## *Dekabrın 17-də Bakıda, Heydər Əliyev Mərkəzində «Şahdəniz-2» üzrə yekun investisiya qərarının imzalanması mərasimi olmuşdur*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva mərasimdə iştirak etmişlər.*




Mərasimdə çıxış edən Prezident İlham Əliyev bildirmişdir ki, bu gün müasir Azərbaycanın tarixində tarixi gündür. «Şahdəniz 2» enerji layihəsi üzrə yekun investisiya qərarının qəbul edilməsi Azərbaycanın uzunmüddətli uğurlu iqtisadi inkişafını təmin edəcəkdir: «Şahdəniz 2» layihəsi dünyada ən iri enerji layihəsidir. Bu, enerji təhlükəsizliyi, enerji şaxələndirilməsi, bu tarixi layihəyə cəlb olunmuş ölkələr və şirkətlər arasında geniş beynəlxalq əməkdaşlıq layihəsidir».

Azərbaycanın enerji siyasətinin uğurlarından danışan dövlət başçısı qeyd etmişdir ki, 19 il əvvəl Azərbaycanın siyasi həyatında mühüm hadisə baş vermişdir. Ümummilli lider Heydər Əliyevin müdrikliyi, uzaqgörənliyi sayəsində müstəqilliyin əldə edilməsindən cəmi üç il, Azərbaycanda vətəndaş müharibəsinin başa çatmasından bir il və Ermənistanla atəşkəs rejimi haqqında razılığın əldə olunmasından dörd ay sonra Azərbaycan əcnəbi tərəfdaşlarla birgə «Əsrin müqaviləsi»ni imzalanmışdır. Bu müqavilə ilk dəfə olaraq Xəzər regionunu xarici investisiyalar üçün açdı və Azərbaycanın uğurlu iqtisadi inkişafını təmin etmişdir. 1996-cı ildə «Şahdəniz» qaz-kondensat yatağının işlənməsi layihəsi üzrə müqavilənin imzalanmasına diqqət çəkən Azərbaycan Prezidenti daha sonra, 1999-cu ildə Qara dənizlə Xəzər dənizini birləşdirən və Bakıdan Gürcüstanın Qara dəniz sahillərinədək uzanan ilk boru kəməri inşa edildiyini, 2006-cı ilin mayında Bakı-Tbilisi-Ceyhan boru kəməri istismara verildiyini diqqətə çatdırmışdır: «Bu kəmər ilk dəfə olaraq Xəzər regionunu beynəlxalq bazarlarla, o cümlədən Aralıq dənizi bazarları ilə birləşdirdi. 2007-ci ildə Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirən və «Şahdəniz 2» layihəsinin bir hissəsi olan Cənubi Qafqaz qaz kəməri tikildi».

2011-ci ildə Azərbaycan və Avropa İttifaqı strateji enerji əməkdaşlığına dair memorandumun imzalandığını xatırladan Prezident İlham Əliyev bildirmişdir ki, bu sənəd Azərbaycanın enerji strategiyasının inkişafına töhfə vermiş, enerjinin şaxələndirilməsini və Avropaya qaz ixracını təmin etmişdir: «2012-ci ildə biz Türkiyə ilə Trans Anadolu qaz kəməri - TANAP üzrə tarixi saziş imzaladıq. Bu il, 2013-cü ildə Trans Adriatik boru kəməri (TAR) əsas ixrac marşrutu kimi seçildi və indi biz «Şahdəniz 2» üzrə yekun investisiya qərarını imzalayırıq». Dövlət başçısı qeyd etmişdir ki, bu, Azərbaycanda ən böyük qaz yataqlarından birinin tammiqyaslı işlənməsi yolunda belə mühüm hadisələrin yalnız kiçik nümunəsi olmaqla, tarixin inikasıdır. Bu layihə regionun və Avropanın enerji xəritəsini dəyişdirəcək.

Prezident İlham Əliyev bildirmişdir ki, Azərbaycan birgə səylərlə həyata keçirəcək nəhəng layihənin yalnız ilkin mərhələsindədir: «Mən bütün Azərbaycan xalqını bu tarixi gün münasibətilə təbrik etmək istərdim. Bu, ölkəmizin uzunmüddətli davamlı iqtisadi inkişafını təmin edəcək. Eyni zamanda, mən «Şahdəniz» konsorsiumuna Azərbaycana sadiqliyinə görə öz minnətdarlığımı bildirmək istərdim. Xüsusilə strateji tərəfdaşlara və Azərbaycanın enerji layihələrinin iki liderinə - ARDNŞ və BP-yə xüsusi minnətdarlığımı bildirmək istərdim. ARDNŞ və BP arasında tərəfdaşlıq 20 illik tarixə malikdir və bu gün imzalanan investisiya qərarı bizə bu strateji tərəfdaşlığı ən azı daha 40 il, ola bilsin ki, daha da çox davam etdirməyə imkan verir».

Mərasimdə Albaniyanın Baş naziri Edi Rama, Bolqarıstanın Baş naziri Plamin Orişarski, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Xorvatiyanın Baş naziri Zoran Milanoviç, Monteneqronun Prezidenti Filip Vuyanoviç, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının xarici işlər naziri Uilyam Heyq, İtaliyanın xarici işlər naziri Emma Bonino, Türkiyənin enerji və təbii sərvətlər naziri Taner Yıldız, Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Günter Ottinger, ABŞ-ın enerji nazirinin köməkçisi vəzifəsini icra edən Conatan Elkind, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev, BP şirkətinin baş icraçı direktoru Robert Dadli çıxış etmişlər.

Çıxışlardan sonra sənədlərin imzalanma mərasimi olmuşdur.

# Azərbaycanda milli mənəvi dəyərlər daim yüksək tutulur

*Dekabrın 13-də Bakının Nərimanov rayonunda ucaldılan «Kitabi-Dədə Qorqud» abidəsinin və yeni salınan Dədə Qorqud parkının açılışı olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak etmişdir.*




Dövlətimizin başçısının 2007-ci ildə imzaladığı «Azərbaycandakı monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq kompleksləri haqqında» Sərəncama əsasən, Dədə Qorqud heykəli və «Dədə Qorqud dünyası» tarixi-etnoqrafik kompleksinin yaradılması ilə bağlı müvafiq tədbirlərin görülməsi haqqında tapşırıq verilmişdir. Geniş tikinti və abadlıq işləri nəticəsində Bakının Nərimanov rayonunda 6 hektar ərazidə Dədə Qorqud parkı salınmışdır. Parkın mərkəzində «Kitabi-Dədə Qorqud» abidəsi ucaldılmışdır.

Parkda yaradılan şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev mərasimdə iştirak edən elm, təhsil və mədəniyyət ictimaiyyətinin tanınmış nümayəndələri ilə görüşmüşdür. Dövlətimizin başçısı Dədə Qorqud abidəsinin açılışı münasibətilə tədbir iştirakçılarını səmimi təbrik etmişdir: «Kitabi-Dədə Qorqud» Azərbaycan xalqının milli sərvətidir. Bu əsərdə Azərbaycan xalqının keçmiş həyat tərzi, məişəti, psixologiyası əks olunmuşdur. Əsərin qəhrəmanlarının adlarını Azərbaycanın çoxsaylı yaşayış məntəqələrində görmək olar. Bu əsərdə Azərbaycan toponimləri əks olunmuşdur. Bir sözlə, «Kitabi-Dədə Qorqud» dastanı Azərbaycan xalq ədəbiyyatının yazılı abidəsidir. Bu dastan hər bir azərbaycanlı üçün əzizdir. Bu gün bu abidənin ucaldılması Azərbaycan xalqının bir daha öz tarixi keçmişinə, mədəniyyətinə olan münasibətinin təzahürüdür».

Dövlətimizin başçısı vurğulamışdır ki, yeni parkın istifadəyə verilməsi şəhər sakinlərinin mədəni istirahətinin təşkili baxımından da əhəmiyyət daşıyır: «Bakı nadir bir şəhərdir. Təkcə gözəlliyinə görə yox, ona görə ki, Bakıda bir neçə mərkəz vardır. Adətən, şəhərlərdə, hətta böyük şəhərlərdə bir, ya iki mərkəz olur, ancaq Bakıda bir neçə mərkəz vardır. İçərişəhər Bakının mərkəzidir. Azadlıq Meydanı, Bulvar şəhərin mərkəzidir. Yeni Bulvar, tikilməkdə olan Ağ Şəhər Bulvarı, Heydər Əliyev Mərkəzi artıq şəhərin mərkəzinə çevrilmişdir. Heydər Əliyev Sarayının önündə və arxa hissəsində salınmış yeni parklar, - onların uzunluğu bir kilometrdən çoxdur, - mərkəzə çevrilmişdir. Yəni, bu, şəhərimizin xüsusiyyətidir. Əlbəttə, bu parkın açılması həm insanların istirahəti üçün yeni imkanlar yaradacaq, eyni zamanda, şəhərin bu hissəsinin abadlaşdırılmasına xidmət göstərəcəkdir. Biz gözəl şəhərimizin daha da gözəlləşdirilməsi işində bundan sonra daha böyük işlər görəcəyik».

Sonra Azərbaycan Prezidenti abidənin üzərindəki örtüyü götürmüşdür.

«Kitabi-Dədə-Qorqud» abidəsində dastanın müqəddiməsi və 12 boyundan hissələr əks olunmuşdur.

## "Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli 829-IVQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, «Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli 829-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının «Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. üç ay müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların «Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 16 dekabr 2013-cü il.*

## "Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin 1-ci hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

1. «Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında» Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, №12, maddə 739; 2004, №1, maddə 2; 2008, №12, maddə 1054) 1-ci və 2-ci maddələrində «2001-ci il yanvarın 1-dən başlayaraq 3 il müddətinə» sözləri «2014-cü il yanvarın 1-dən başlayaraq 5 il müddətinə» sözləri ilə əvəz edilsin.

2. Bu Qanun 2014-cü il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 22 noyabr 2013-cü il.*

2 Azərbaycan Beynəlxalq Antikorrupsiya Akademiyası Assambleyasının Büro üzvü seçilmişdir

3 Vergilər Nazirliyi qlobal vergi əməkdaşlığının fəal iştirakçısıdır

4 Elektron bəyannamə şəffaflığa zəmin yaradır

5 Nağdsız ödənişlərin mühüm vasitəsi

# Vergi xidməti əməkdaşları ümummilli lider Heydər Əliyevin məzarını ziyarət etmişlər

Müstəqil Azərbaycan dövlətinin qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 10 il keçdi. Müasir Azərbaycan dövlətçiliyinin memarı Heydər Əliyev Azərbaycan tarixində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan, əfsanəvi şəxsiyyət kimi şərəfli yer tutur.

Heydər Əliyevin vəfatının ildönümü günü - dekabr ayının 12-də Vergilər Nazirliyinin kollektivi də hər il olduğu kimi, Fəxri xiyabana gələrək ulu öndərin məzarını ziyarət etmişdir. Ümummilli liderin əziz xatirəsi ehtiramla yad edilmiş, məzarı önünə gül-çiçək dəstələri qoyulmuşdur.

# Vergi daxilolmaları

## *2013-cü ilin yanvar-noyabr aylarında Vergilər Nazirliyinin xətti ilə büdcəyə 6 milyard 245 milyon 438,8 min manat vəsait daxil olmuşdur*

*Bu məbləğin 37,9%-i mənfəət vergisinin, 24,7%-i əlavə dəyər vergisinin, 12%-i fiziki şəxslərin gəlir vergisinin, 7,5%-i aksizlərin, 17,9%-i isə digər vergilərin payına düşür. Qeyri-neft-qaz sektoru üzrə büdcəyə 3 milyard 409 milyon 293,5 min manat vəsait daxil olmuşdur.*

Yanvar-noyabr aylarında respublika üzrə 66 min 162 vergi ödəyicisi, o cümlədən elektron qaydada 30 min 221 (45,7%) vergi ödəyicisi qeydiyyata alınmışdır. 1 dekabr 2013-cü il tarixə qeydiyyatda olan vergi ödəyicilərinin ümumi sayı 533 min 93 təşkil edir ki, bu da 1 dekabr 2012-ci il tarixə qeydiyyatda olan vergi ödəyicilərinin sayından 11,8% çoxdur.

2013-cü ilin yanvar-noyabr ayları ərzində respublika üzrə elektron formada göndərilmiş bəyannamələrin xüsusi çəkisi 90,4% təşkil etmişdir.




# Rusiya Elmlər Akademiyasında konfrans keçirilmişdir

*Rusiya Elmlər Akademiyasının Mərkəzi İqtisadiyyat-Riyaziyyat İnstitutu 50 illik yubileyini qeyd etmişdir. Bu münasibətlə Moskva şəhərində «İqtisadi-riyazi və instrumental üsullar xalq təsərrüfatının modernləşdirilməsinə xidmət edir» mövzusunda konfrans keçirilmiş, dünyanın müxtəlif ölkələrindən institutda təhsil almış şəxslər konfransa dəvət olunmuşlar.*

Konfrans iştirakçıları təhsil aldıqları illər barədə təəssüratlarını paylaşmış, konfransın mövzusu ilə əlaqədar apardıqları elmi-təcrübi araşdırmalar, öz ölkələrindəki bu sahədə görülən işlər barədə ətraflı çıxışlar etmişlər. Konfransda müasir zamanda iqtisadi proseslərin riyazi modelləşdirilməsi və onların müvafiq proqram təminatı vasitəsilə hesablanma imkanları, modellərin iqtisadiyyatın müxtəlif sahələrinə, o cümlədən vergiqoyma sahəsinə tətbiqinin mümkünlüyü müzakirə olunmuşdur.

Tədbirdə vergilər nazirinin vergi siyasəti məsələləri üzrə müşaviri Akif Musayev iştirak etmişdir.

# Azərbaycan Beynəlxalq Antikorrupsiya Akademiyası Assambleyasının Büro üzvü seçilmişdir

*Beynəlxalq Antikorrupsiya Akademiyası 2010-cu ildə Avstriya Hökuməti, BMT-nin Narkotiklərə və Cinayətkarlığa qarşı Mübarizə Ofisi və Avropa Saxtakarlıq Əleyhinə Təşkilatın birgə təşəbbüsü ilə təsis edilmişdir. 53 dövlətin üzv olduğu bu beynəlxalq təşkilat antikorrupsiya sahəsində bilik və təcrübələrin artırılması, təhsil, tədris, şəbəkənin yaradılması, əməkdaşlıq və akademik axtarışlar sahəsində müstəqil mərkəz kimi fəaliyyət göstərir. Ötən müddət ərzində Akademiya beynəlxalq antikorrupsiya hərəkatına öz töhfələrini vermiş, korrupsiyanın qarşısının alınmasında hökumətlər, qeyri-hökumət təşkilatları və ictimaiyyətin geniş təbəqələri ilə sıx əməkdaşlıq etmişdir. Hazırda Akademiya korrupsiyaya qarşı mübarizə və şəffaflığın artırılması üzrə əsas beynəlxalq platforma kimi çıxır edir.*



Dekabrın 9-11 tarixlərində Tailand Krallığının Banqkok şəhərində Beynəlxalq Antikorrupsiya Akademiyasının təsis olunması haqqında Müqaviləyə tərəf dövlətlərin 2-ci Assambleyası keçirilmişdir. Tədbirdə müqaviləyə tərəf olan 29 dövlətin və 11 müşahidəçi ölkənin yüksək səviyyəli nümayəndə heyətləri, eləcə də nüfuzlu beynəlxalq təşkilatlar iştirak etmişlər.

Assambleyada Azərbaycan Respublikasını vergilər nazirinin müavini Sahib Ələkbərovun başçılıq etdiyi - Vergilər Nazirliyi, Baş Prokurorluq və ölkəmizin Avstriyada yerləşən beynəlxalq təşkilatlar yanında Daimi Nümayəndəliyinin əməkdaşlarının daxil olduğu nümayəndə heyəti təmsil etmişdir.

Assambleyanın açılışında Tailandın Korrupsiyaya qarşı Mübarizə üzrə Milli Komissiyasının Prezidenti Panthep Klanarongran və Beynəlxalq Antikorrupsiya Akademiyasının icraçı direktoru Martin Kreutner çıxış etmişlər. Çıxışlarda Akademiyanın inkişafı ilə bağlı görülən işlərdən və gələcək planlardan danışılmış, qısa müddət ərzində təşkilatın beynəlxalq nüfuzunun nəzərəçarpacaq dərəcədə artdığı, Akademiyanın BMT Baş Assambleyası yanında müşahidəçi statusu alması ilə bağlı prosedurların yekunlaşmaqda olduğu vurğulanmışdır.

Assambleyanın ilk sessiyasında aparılan geniş müzakirələrdə Malayziya, Makedoniya və Mərakeşin daxili işlər nazirləri, Monqolustanın xarici işlər naziri, Avstriyanın xarici işlər nazirinin müavini, Rusiya, Macarıstan, Çin, Braziliya, İndoneziya və digər ölkələrin yüksək səviyyəli rəsmiləri çıxış etmişlər. Çıxışlarda, əsasən, korrupsiyanın təzahür formaları, ona qarşı mübarizədə müxtəlif milli təcrübələr, habelə Beynəlxalq Antikorrupsiya Akademiyasının fəaliyyətinə dəstək mövzusunda fikirlər səsləndirilmişdir.

İlk sessiyada çıxış edən vergilər nazirinin müavini S.Ələkbərov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən islahatlar, əldə olunmuş uğurlar və inkişaf etməkdə olan beynəlxalq əməkdaşlıq istiqamətləri barədə məlumat verərək, 2005-ci ildən etibarən ölkəmizdə Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın fəaliyyət göstərdiyini, korrupsiyaya qarşı mübarizə və şəffaflığın artırılması sahəsində beynəlxalq standartlara uyğun qanunvericilik bazasının yaradıldığını, müvafiq dövlət proqramlarının, o cümlədən Korrupsiyaya qarşı mübarizə üzrə, həmçinin Açıq Hökumətin təşviq olunmasına dair yeni Milli Fəaliyyət planlarının qəbul edildiyini bildirmişdir. S.Ələkbərov Azərbaycanın Açıq Hökumət Tərəfdaşlığı Təşəbbüsünə qoşulan ilk ölkələrdən olduğunu, əldə edilən nailiyyətlərin beynəlxalq təşkilatların, o cümlədən BMT, Avropa İttifaqı və Avropa İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının hesabatlarında təqdir olunduğunu da vurğulamışdır.

Bildirilmişdir ki, Azərbaycan hökuməti korrupsiyaya qarşı mübarizənin vacib elementi kimi vətəndaşlara göstərilən xidmətlərin təkmilləşdirilməsinə və onların əlçatan olmasına xüsusi önəm verir. Buna misal olaraq, 2012-ci ildən fəaliyyətə başlayan Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyinin «ASAN xidmət» mərkəzlərinin xidmətlərindən, eləcə də ölkəmizin vergi orqanlarının elektron xidmətlərindən yararlanan vətəndaşların sayının gündən-günə artdığı vurğulanmışdır.

Tədbir iştirakçılarına məlumat verilmişdir ki, Vergilər Nazirliyi ilə Beynəlxalq Antikorrupsiya Akademiyası arasında 2012-ci ilin fevral ayında imzalanmış Anlaşma Memorandumu çərçivəsində geniş əməkdaşlıq edilir. Ötən müddət ərzində vergi xidmətində tətbiq olunmuş yeni informasiya texnologiyaları sayəsində vergi ödəyiciləri ilə iş prosesləri tamamilə elektronlaşdırılmışdır ki, bu da vətəndaş-məmur təmaslarının minimallaşdırılmasına və korrupsiyaya zəmin yaradan halların aradan qaldırılmasına xidmət edir. Bildirilmişdir ki, Vergilər Nazirliyi ölkəmizdə elektron dövlət quruculuğunda fəal iştirak edən və mobil hökumətə keçid istiqamətində konkret layihələr reallaşdıran ilk dövlət qurumlarından biridir.

Assambleyada təşkilatın inkişafı üzrə aidiyyəti orqanların hesabatları dinlənilmiş, Rusiya, Avstriya və Beynəlxalq Antikorrupsiya Akademiyasının təqdim etdiyi üç qətnamə layihəsi geniş müzakirələrdən sonra qəbul edilmişdir. Sonda növbəti il üçün Assambleyanın rəhbər orqanı olan Büroya seçkilər keçirilmişdir. Nümayəndəsi Büroya üzv seçilmiş beş ölkədən biri də Azərbaycan olmuşdur.

**xarici mətbuat səhifələrində**

# Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır

## *İtaliyanın nüfuzlu «Semestre Europeo» jurnalında Azərbaycanın enerji potensialından bəhs edən məqalə dərc olunmuşdur*

Məqalədə qeyd olunur ki, əlverişli strateji mövqedə yerləşən Azərbaycan enerji ehtiyatlarına və iqtisadi inkişaf sürətinə görə bu gün beynəlxalq aləmdə həm geosiyasi, həm də geoiqtisadi baxımdan önəmli bir məkana çevrilmişdir. «Odlar yurdu» adlanan bu məmləkət zəngin neft və təbii qaz ehtiyatlarına malikdir.

Müəllif Azərbaycanda neft sənayesinin inkişaf tarixindən, ölkəmizin müxtəlif dövrlərdə mühüm enerji təminatçısı olmasının əhəmiyyətindən söz açmışdır. Vurğulanmışdır ki, 1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycan tezliklə beynəlxalq aləmdə mövqeyini möhkəmləndirməyə nail olmuşdur.

Yazıda, həmçinin, Trans-Adriatik (TAP) qaz kəməri layihəsi haqqında məlumat verilir. Diqqətə çatdırılır ki, bu layihə Xəzər regionundan Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizi ilə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya qaz nəqlini nəzərdə tutur. Müəllif Avropa Komissiyasının sədri Xose Manuel Barrozunun TAP ilə bağlı bu fikirlərini də qeyd etmişdir: «Mən «Şahdəniz» Konsorsiumunun TAP layihəsini seçməsi ilə bağlı qərarını alqışlayıram. Bu, Avropa üçün mühüm uğurdur və Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin olunmasının təməl daşıdır».

Məqalədə Azərbaycanın İtaliyadakı səfiri Vaqif Sadıqovun da fikirlərinə yer verilmişdir. Səfirin sözlərinə görə, enerji əməkdaşlığı Azərbaycan ilə Avropa İttifaqı arasında daha yaxın siyasi əlaqələrin qurulmasına töhfə verəcəkdir. Bu əlaqələr xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində aparılan danışıqlara da öz təsirini göstərəcəkdir. Avropa İttifaqı enerji məsələləri ilə yanaşı, Cənubi Qafqazda təhlükəsizliyin təmin olunmasına da fəal şəkildə töhfə verə bilər.

Müəllif, həmçinin, İtaliya-Azərbaycan Ticarət İnstitutunun ölkələrimiz arasında iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsi istiqamətində fəaliyyəti haqqında məlumat vermişdir.

# Vergilər Nazirliyi əməkdaşlığa ən açıq dövlət qurumu seçilib

*İqtisadi Tədqiqatlar Mərkəzi (İTM) Avropa İttifaqı tərəfindən maliyyələşdirilən «Beyin mərkəzlərinin qərar qəbulu arenasında rolunun gücləndirilməsi vasitəsi ilə idarəetmənin effektivliyinin yüksəldilməsi» layihəsini başa çatdırıb. İki il müddətində həyata keçirilən layihənin başlıca məqsədi Azərbaycanda fəaliyyət göstərən yerli düşüncə mərkəzlərinin institusional və tədqiqat imkanlarının artırılması yolu ilə onların qərarların qəbulunda iştirakını və hökumətin fəaliyyətinin gücləndirilməsində rolunu artırmaq olub.*

Bu günlərdə layihənin yekunlarına həsr edilmiş konfrans və sərgi təşkil olunub, sərgidə tərəfdaş beyin mərkəzlərinin məhsulları nümayiş etdirilib. Tədbirdə xarici ölkə səfirliklərinin, beynəlxalq təşkilatların, dövlət orqanlarının, biznes, mətbuat və yerli vətəndaş cəmiyyəti institutlarının nümayəndələri iştirak ediblər.

İştirakçılara layihə çərçivəsində görülən işlər barədə yekun hesabatlar təqdim edilib. İTM İdarə Heyətinin üzvü Dünya Camalova layihə çərçivəsində əməkdaşlığa açıq olan dövlət orqanının müəyyənləşdirilməsi məqsədilə KİV və QHT-lər arasında keçirilmiş sorğunun nəticələrini açıqlayıb. Bildirilib ki, tanınmış jurnalistlər və QHT-lər arasında keçirilmiş sorğuya dövlət orqanlarının vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığa açıqlıq səviyyəsini müəyyənləşdirməyə imkan verən suallar daxil edilib. Cavablandırılmış anketlərin təhlili nəticəsində əməkdaşlığa açıqlığın müxtəlif parametrləri üzrə toplanan səslərin yekununa görə, Vergilər Nazirliyi 55 səslə 1-ci yerə çıxıb. İlk onluğun sonrakı yerlərini Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi (29 səs), İqtisadiyyat və Sənaye Nazirliyi (29 səs), Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (26 səs), Ekologiya və Təbii Sərvətlər Nazirliyi (22 səs), Daxili İşlər Nazirliyi (17 səs), Dövlət Sosial Müdafiə Fondu (17 səs), Ədliyyə Nazirliyi (Bələdiyyələrlə İş Mərkəzi və Penitensiar Xidmətin timsalında - 16 səs), Dövlət Neft Fondu (14 səs), Dövlət Statistika Komitəsi (13 səs), Baş Prokurorluq (13 səs), Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (12) və Təhsil Nazirliyi (12 səs) tutublar.

# Vergilər Nazirliyi qlobal vergi əməkdaşlığının fəal iştirakçısıdır



*Beynəlxalq əməkdaşlığını genişləndirən Vergilər Nazirliyi 2013-cü ildə də bu sahədə bir sıra mühüm uğurlara imza atmışdır. Nazirliyin Beynəlxalq münasibətlər idarəsinin rəisi Mətin Kərimli qəzetimizə müsahibəsində beynəlxalq əlaqələr sahəsində əldə olunan uğurlar və planlaşdırılan layihələr barədə ətraflı məlumat vermişdir.*

**- Son illər Vergilər Nazirliyinin bir sıra beynəlxalq təşkilatlar, xüsusilə IOTA, Avropa İttifaqı və OECD ilə əlaqələri genişlənmişdir. Beynəlxalq təşkilatlarla əməkdaşlığın cari vəziyyətini və perspektivlərini necə qiymətləndirirsiniz?**

- Vergilər Nazirliyi son illər qlobal vergi münasibətlərinin fəal iştirakçılarından birinə çevrilmişdir. Əməkdaşlıq etdiyimiz təşkilatların və qurumların coğrafiyası bunu bir daha təsdiq edir. Hazırda nazirliyin Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Beynəlxalq Anti-Korrupsiya Akademiyası (IACA), Avropa İttifaqı, MDB vergi orqanları rəhbərlərinin Koordinasiya Şurası, Amerikadaxili Vergi Administrasiyaları Mərkəzi (CIAT), BMT, İslam Ölkələrinin Vergi Administrasiyaları Assosiasiyası (ATAIC), Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası (IFC) və digər təşkilatlarla əməkdaşlıq münasibətləri mövcuddur. Nazirliyin istər beynəlxalq təşkilatlar, istərsə də qabaqcıl dövlətlərin vergi orqanları ilə əməkdaşlıq istiqamətləri ölkəmizin strateji hədəfləri, vergi sisteminin prioritetləri, eləcə də beynəlxalq vergitutma sahəsində mövcud tendensiyalar nəzərə alınmaqla müəyyən edilir.

Beynəlxalq əlaqələrimizin cari vəziyyətinə gəlincə, bir neçə konkret nümunəni diqqətinizə çatdırmaq istərdim. Vergilər Nazirliyinin əsas beynəlxalq tərəfdaşı 2002-ci ildən tamhüquqlu üzvü olduğu IOTA-dır. Ötən illərdə əməkdaşlarımız müntəzəm olaraq təşkilatın müxtəlif tədbirlərində yaxından iştirak etmişlər. Vergilər Nazirliyi IOTA-nın bir neçə mühüm tədbirinə, o cümlədən «Vergi ödəyicilərinə xidmət», «ƏDV fırıldaqçılığının aşkarlanması və qarşısının alınması», «Vergi borclarının idarə edilməsi» işçi qruplarının iclaslarına ev sahibliyi etmişdir. 2013-cü ilin fevral ayında 33 ölkənin nümayəndəsinin iştirakı ilə IOTA-nın Baş Əlaqələndirici Şəxslərinin Forumu da Bakı şəhərində keçirilmişdir. IOTA-nın prezidenti cənab Samuel Tanner ilk dəfə olaraq həmin forumda iştirak etmişdir.

IOTA-nın 17-ci Baş Assambleyasının 2013-cü il iyun ayının 27-si və 28-də İsveçrənin Bern şəhərində keçirilmiş iclasında Vergilər Nazirliyi təşkilatın İcraiyyə Şurasına üzv seçilmişdir. Vergilər Nazirliyi MDB ölkələri arasında IOTA-nın İcraiyyə Şurasına üzv seçilmiş ilk vergi administrasiyasıdır. Təşkilatın əsas qərarverici və idarəetmə orqanı olan İcraiyyə Şurasına üzvlük nazirliyin IOTA ilə əməkdaşlığının yeni mərhələsi olmaqla, onun beynəlxalq əlaqələrinin inkişafı və nüfuzunun artırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Vergilər Nazirliyinin digər mühüm beynəlxalq tərəfdaşı OECD-dir. Bu təşkilatla əməkdaşlıq əsasən 2 struktur - OECD-nin Vergi Məsələləri üzrə Qlobal Şəffaflıq Forumu və Vergi Siyasəti və İnzibatçılığı Mərkəzi vasitəsilə aparılır. Vergilər Nazirliyinin həyata keçirdiyi tədbirlər sayəsində Azərbaycan 2013-cü il fevralın 26-da Qlobal Foruma üzv qəbul edilmişdir. Növbəti ildə Qlobal Forum çərçivəsində ölkəmizin milli qanunvericiliyinin şəffaflıq və məlumat mübadiləsi üzrə beynəlxalq standartlara uyğunluğunun qiymətləndirilməsi prosesi keçiriləcəkdir. Hazırda bu prosesə hazırlıq məqsədilə OECD və Beynəlxalq Maliyyə Korporasiyası ilə əməkdaşlıq edirik. Bundan əlavə, qiymətləndirmə prosesinə cəlb olunacaq nazirlik əməkdaşlarının lazımi təlim kurslarında iştirakı təmin olunur.

OECD-nin Vergi siyasəti və inzibatçılığı Mərkəzi ilə qurulmuş əməkdaşlıq çərçivəsində 2013-cü il iyunun 10-dan 14-dək Bakı şəhərində ilk dəfə olaraq «Çoxmilli müəssisələrin auditi» mövzusunda seminar keçirilmişdir. Növbəti tədbirin gələn ilin iyun ayında keçirilməsi, eləcə də əməkdaşlarımızın OECD-nin vergi məsələləri üzrə işçi qruplarının işində iştirakı nəzərdə tutulur. Bununla yanaşı, əməkdaşlığın daha da dərinləşdirilməsi məqsədilə imzalanması nəzərdə tutulan OECD ilə əməkdaslıq fəaliyyəti haqqında saziş layihəsi ilə bağlı işi yekunlaşdırmaq üzrəyik.

Vergilər Nazirliyinin beynəlxalq əməkdaşlığının mühüm istiqamətlərindən biri də MDB iştirakçısı olan dövlətlərin vergi xidmətləri rəhbərlərinin Koordinasiya Şurası və Vergi (maliyyə) təhqiqat orqanları rəhbərlərinin Koordinasiya Şurasının işində iştirakdan ibarətdir. Vergilər Nazirliyi koordinasiya şuralarının yarandığı vaxtdan (2000, 2001) onların üzvüdür. MDB iştirakçısı olan ölkələrin vergi xidmətləri rəhbərlərinin Koordinasiya Şurasının 2012-ci ilin iyun ayında Bakı şəhərində keçirilmiş iclasının qərarına əsasən, vergilər naziri cənab Fazil Məmmədov bir il ərzində Şuraya sədrlik etmiş, Şuranın cari ilin oktyabr ayında Minsk şəhərində keçirilmiş iclası da məhz Vergilər Nazirliyinin sədrliyi ilə keçirilmişdir.

2013-cü ilin mühüm uğurlarından biri də cari ilin 9-11 dekabr tarixlərində Tailand Krallığının Banqkok şəhərində keçirilmiş Beynəlxalq Antikorrupsiya Akademiyasının təsis olunması haqqında Müqaviləyə tərəf dövlətlərin 2-ci Assambleyasında Vergilər Nazirliyinin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyətinin iştirakı və tədbir zamanı ölkəmizin növbəti il üçün bu mötəbər beynəlxalq təşkilatın rəhbər orqanı olan Büronun 5 üzvündən biri seçilməsi olmuşdur.

Nəhayət, qeyd etmək istərdim ki, Vergilər Nazirliyinin əməkdaşları mütəmadi olaraq müxtəlif tədbirlərdə və beynəlxalq strukturların işində ekspert qismində yaxından iştirak edir, öz bilik və təcrübələrini digər ölkələrin nümayəndələri ilə bölüşür. Bu baxımdan, mühüm uğur kimi cari ilin iyulun 26-da BMT Baş katibinin qərarına əsasən, Vergilər Nazirliyinin nümayəndəsinin növbəti 4 illik müddətə BMT-nin Vergi məsələlərində beynəlxalq əməkdaşlıq üzrə Ekspertlər Komitəsinin 25 üzvündən biri təyin edilməsini göstərmək olar.

**- Vergilər Nazirliyinin Avropa ölkələri ilə ikiqat vergitutmanın aradan qaldırılması sahəsində imzaladığı sazişlər ölkəmizin iqtisadi və investisiya əməkdaşlığı sahəsində əsas tərəfdaşlarını tam əhatə edirmi? Ümumiyyətlə, perspektivdə daha hansı ölkələrlə belə konvensiyaların imzalanması nəzərdə tutulur?**

- Son illər Azərbaycanın ikiqat vergitutmanın aradan qaldırılmasını nəzərdə tutan sazişlər şəbəkəsi əhəmiyyətli dərəcədə genişlənmişdir. Ölkəmiz tərəfindən imzalanmış 45 bu cür sazişdən 41-i artıq qüvvədədir. Qalanları isə müvafiq prosedurlar tamamlandıqdan sonra qüvvəyə minəcək. Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzu, iqtisadi və ticarət əlaqələrinin sürətlə genişlənməsi mövcud sazişlər şəbəkəsinin daha da genişləndirilməsini və yeni tərəfdaşları əhatə etməsini obyektiv zərurətə çevirir. Hazırda Vergilər Nazirliyi tərəfindən bu istiqamətdə sistemli iş aparılır.

Avropa İttifaqı ölkələrinə gəldikdə, deyə bilərəm ki, quruma üzv 28 dövlətdən 20-si ilə ikiqat vergitutmanın aradan qaldırılması haqqında müvafiq sazişlər imzalanaraq qüvvəyə minmişdir. İspaniya və Danimarka ilə danışıqlar artıq başa çatmışdır, İsveç, Portuqaliya, Malta, İrlandiya və Slovakiya ilə müzakirələri davam etdiririk və yaqin ki, yaxın zamanda bu müzakirələr uğurla başa çatdırılacaqdır.

**- Hazırda vergi məlumatlarının mübadiləsi bütün dünyada müzakirə olunan aktual məsələlərdən biridir. Azərbaycanın bu məsələdə mövqeyi necədir?**

- Məlumat mübadiləsi ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlərin müvafiq müddəalarına, xüsusi sazişlərə, eləcə də çoxtərəfli sazişlərə əsasən həyata keçirilə bilər. Qeyd edim ki, Azərbaycan Respublikası 2003-cü ildən «Vergi məsələləri üzrə qarşılıqlı inzibati yardım haqqında» Avropa Şurası və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının birgə Konvensiyasına da qoşulmuşdur. Hazırda şəffaflıq və informasiya mübadiləsi üzrə beynəlxalq standartların tətbiqi ilə bağlı Konvensiyaya dəyişikliklər edilməsi haqqında Protokolun imzalanması məqsədi ilə müvafiq prosedurlar yekunlaşmaqdadır.

Vergilər Nazirliyi ölkəmizin imzaladığı müvafiq sazişlər əsasında digər dövlətlərin vergi orqanlarından daxil olan məlumat sorğularının icrası sahəsində yüksək intizam nümayiş etdirir. Hazırda bütün dünyada geniş müzakirə olunan məsələlərdən biri vergi məlumatlarının yalnız sorğu və spontan əsasda mübadiləsi deyil, həm də səmərəli və təhlükəsiz avtomatik məlumat mübadiləsi sisteminin yaradılması-dır və Avropa İttifaqına üzv ölkələrlə yüksək əməkdaşlıq piləsində olan dövlətlər arasında belə bir ümumi sistemin yaradılması və ya mövcud elementlərin təkmilləşdirilməsi aparılır.

ABŞ isə bu münasibətləri daha çox ikitərəfli sənədlər əsasında qurmağa üstünlük verir. İstənilən halda, Vergilər Nazirliyi bu təşəbbüslərə müsbət yanaşır. Həm ikitərəfli əsasda, həm də hər hansı ümumi sistemdə iştirak barədə müvafiq təkliflər alınarsa, qanunvericiliyə uyğun şəkildə baxılacaqdır.

**- Vergi sahəsində zəngin təcrübəyə malik inkişaf etmiş Asiya ölkələri ilə bu istiqamətdə əməkdaşlıq və təcrübə mübadiləsi aparılırmı?**

- Azərbaycanın xarici siyasətində əhəmiyyəti getdikcə artan regionlardan biri də Cənub-Şərqi Asiya regionudur. Son illər bu regionda yerləşən iqtisadi güc mərkəzləri, xüsusilə Çin, Cənubi Koreya, Sinqapur, Malayziya və Yaponiya ilə həm beynəlxalq təşkilatlar çərçivəsində, həm də ikitərəfli qaydada əməkdaşlığımız genişlənir. Dövlət səviyyəsində Koreya və Sinqapura səfərlər zamanı genişmiqyaslı iqtisadi layihələrin, o cümlədən qarşılıqlı sərmayə qoyuluşunun müzakirəsi buna əyani sübutdur. Vergilər Nazirliyinin rəhbərliyinin tapşırığına əsasən, Cənub-Şərqi Asiya regionunda yerləşən ölkələrlə vergi sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi, o cümlədən hüquq-müqavilə bazasının genişləndirilməsi istiqamətində sistemli iş aparılır.

Regionun qabaqcıl ölkələrinin vergi sistemləri təhlil edilir, qabaqcıl təcrübəsi olan ölkələrlə təcrübə mübadiləsinin aparılması üçün konkret addımlar atılır. Oktyabr ayında nazirliyin nümayəndə heyətləri təcrübə mübadiləsi aparmaq məqsədilə Sinqapur və Cənubi Koreyaya səfərlər etmişlər.

**- Son illər ərzində Azərbaycan vergi sahəsində bir sıra beynəlxalq tədbirlərə ev sahibliyi edir. Bu tədbirlərin Azərbaycanın vergi sisteminə verdiyi töhfələr nədən ibarətdir?**

- Bu məsələyə bir neçə müstəvidən yanaşa bilərik. Birincisi, beynəlxalq təşkilatların tədbirlərinin Azərbaycanda təşkili ölkəmizin beynəlxalq miqyasda artan nüfuzunun göstəricisidir. Beynəlxalq təşkilatlar Azərbaycanı dinamik inkişaf edən, regional proseslərdə həlledici rola malik olan ölkə kimi təqdir edirlər. Beləliklə, hər hansı beynəlxalq tədbir ölkəmiz və onun hərtərəfli inkişafı haqqında dolğun və əyani məlumat vermək imkanı yaradır.

İkincisi, Vergilər Nazirliyinin nüfuzlu tədbirlərə ev sahibliyi etməsi onun digər dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən etibarlı və peşəkar tərəfdaş kimi qəbul edilməsinin göstəricisidir. 2013-cü ilin birinci yarısında Vergilər Nazirliyi Avropadaxili Vergi Administrasiyaları Təşkilatının birinci Forumuna və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının seminarına ev sahibliyi etmişdir. Bu kimi tədbirlər milli vergi sisteminin tanıdılması ilə yanaşı, əməkdaşlarımıza digər ölkələrdən olan həmkarları ilə geniş fikir və təcrübə mübadiləsi aparmaq imkanı verir.

**S.MUSTAFAYEV**



Akif Musayev
Azərbaycan Respublikası
vergilər nazirinin müşaviri

## Rakurs

### Vergi potensialı

Ölkə iqtisadiyyatının dayanıqlı inkişafının, dövlət və yerli özünüidarəetmə səviyyəsində həyata keçirilən maliyyələşmə proseslərinin sabitliyin təmin olunması istər cari, istərsə də gələcək dövrlər üzrə büdcə gəlirlərinin və xərclərinin düzgün balanslaşdırılmasını tələb edir. Buna görə də büdcə gəlirlərinin, əsasən də büdcəyə vergi daxilolmalarının lazımi səviyyədə təmin olunması dövlətin qarşısında duran aktual məsələlərdən biridir.

Təcrübə göstərir ki, büdcə gəlirlərinin təmin olunmasının uğurlu həlli üçün dövlətin maliyyə orqanları vergi daxilolmalarının həcminin obyektiv qiymətləndirilməsinə əsas verən məlumat bazasına malik olmalıdır. Bu məsələnin həlli təkcə dövlət idarəetməsi səviyyəsində deyil, həm də yerli özünüidarəetmə orqanlarında mühüm əhəmiyyət kəsb edir.

Hələ vergi nəzəriyyəsinin yarandığı ilk dövrlərdə vergilərə yalnız fiskal bir alət, yəni dövlət xəzinəsinin gəlirlərinin təmin olunmasının maliyyə mənbəyi kimi baxılırdı. Lakin zaman keçdikcə iqtisadiyyatın inkişaf etdirilməsinin labüdlüyü vergitutma sahəsinə dair nəzəriyyədə vergilərin fiskal funksiyası ilə yanaşı, sosial-iqtisadi tənzimləyici rolu barədə də mülahizələrin yaranmasına gətirib çıxarmışdır. Vergi nəzəriyyəsinin sonrakı inkişafı nəticəsində vergilərin iqtisadi inkişafa təsiri ilə bağlı mülahizələr öz elmi əsaslarını taparaq dövlət xəzinəsinin gəlirlərinin artırılması imkanlarının araşdırılması məsələləri

*Vergi potensialı büdcənin vergi daxilolmalarının formalaşdırılmasını nəzərdə tutduğu halda, maliyyə potensialı büdcənin vergi və qeyri-vergi daxilolmaları üzrə imkanlarını müəyyən edir*

daha da aktuallaşmışdır. Dövlət xəzinəsinin vergi daxilolmaları ilə bağlı gəlirləri üzrə imkanlarının müəyyən olunmasına yönəldilən tədbirlərin nəticəsini ifadə edən bir termin kimi vergi potensialı anlayışı meydana çıxmışdır. Adından göründüyü kimi, vergi potensialı vergi daxilolmalarının mümkün və ehtimal oluna bilən həcminin müəyyən olunmasını nəzərdə tutur.

Ümumiyyətlə, iqtisadi nəzəriyyədə potensial sözü mümkünlük, qabiliyyət, resurs imkanları, ehtiyat və s. bu kimi terminlərə daha çox uyğun gəlir. Belə terminlərlə ifadə olunan faktorların başlıca xüsusiyyəti ondan ibarətdir ki, onlar real həyatda reallaşa da bilər, reallaşmaya da. Mütəxəssislərin fikrincə, potensial anlayışına istifadə olunmayan imkanlar, tələb olunmayan resurslar kimi də baxıla bilər. Bundan başqa, vergi potensialı həm də ölkənin sosial-iqtisadi inkişafını təmin edən vasitələrdən biri kimi qəbul edilir.

İqtisadi nəzəriyyədə vergi potensialı anlayışı ilə yanaşı, maliyyə potensialı anlayışından da istifadə olunur. Onların da bir-birindən fərqi büdcə sisteminin gəlir hissəsinin formalaşdırılmasındakı rolları ilə əlaqədardır. Vergi potensialı büdcənin vergi daxilolmalarının formalaşdırılmasını nəzərdə tutduğu halda, maliyyə potensialı büdcənin vergi və qeyri-vergi daxilolmaları üzrə imkanlarını müəyyən edir. Bundan başqa, vergi potensialından fərqli olaraq maliyyə potensialı həm də özəl sektorun investisiya cəlbediciliyinin və onun perspektiv inkişafının obyektiv qiymətləndirilməsində istifadə olunan əsas göstəricilərdəndir.

Qeyd etmək lazımdır ki, təcrübədə vergi potensialının müəyyən olunması məsələlərinə, adətən, iki aspektdən yanaşılır. Birinci yanaşma büdcə-vergi münasibətlərində daha geniş yayılmış abstrakt anlayış olmaqla büdcənin arzu edilən gəlirlərinin həcminin müəyyən olunmasını, digər yanaşma isə dövlətin maliyyə imkanlarının makroiqtisadi aspektlərini ifadə edir. Ümumiyyətlə, vergi potensialı hesablanan bir göstərici olmaqla vergi sisteminin səmərəliliyinin indikatoru kimi çıxış edir və büdcə-vergi proqnozlarının tərtibi zamanı bir məlumat bazası rolunu oynayır. Eyni zamanda, vergi potensialı üç əsas funksiyanın yerinə yetirilməsini nəzərdə tutur ki, bunlara fiskal, tənzimləyici və təhlil funksiyaları aid olunur.

Təcrübədə vergi potensialının müəyyənləşdirilməsi həm həqiqi, həm də indeks göstəriciləri vasitəsi ilə həyata keçirilir. Vergi potensialının indeks göstəricilərinin müəyyən olunması mövcud real vəziyyətin obyektiv qiymətləndirilməsini təmin etməklə aparılan hesablamalara inflyasiya faktorunun təsirinin azaldılmasını təmin edir. Vergi potensialının müəyyən olunması zamanı gizli iqtisadiyyatda baş verən dövriyyələrin nəzərə alınması qiymətləndirmənin obyektivliyini təmin edən əsas amillərdəndir. Müxtəlif mənbələrdən alınmış məlumatlara görə, «gizli» iqtisadiyyatda mövcud olan dövriyyələrin həcmi leqal dövriyyənin 10%-dən 40%-dək olan hissəsini təşkil edir. Buna görə də «gizli» vəsaitlərin leqallaşdırılması problemi həmişə dövlətin qarşısında duran aktual məsələlərdən biridir.

Qeyd etmək lazımdır ki, vergi potensialı ilə bağlı məsələlərdə potensialın reallaşdırılması vergi inzibatçılığının əsas vəzifələrindən sayılır. Buna yalnız o zaman tam nail oluna bilər ki, potensialdan istifadə üçün ideal bir şərait yaradılmış olsun.

Göstərilənlər belə nəticəyə gəlməyə əsas verir ki, vergi potensialının tam və obyektiv qiymətləndirilməsi iki əsas məsələnin həllini tələb edir:

- *maliyyə resursları düzgün qiymətləndirilməklə vergi potensialının müəyyən olunması;*
- *vergi yükünün həm vergi ödəyicilərinin, həm də dövlət və bələdiyyə büdcələri səviyyəsində optimal həddinin müəyyən olunması.*

Bunlara nail olunması üçün, ilk növbədə, vergi inzibatçılığının təkmilləşdirilməsi və təsərrüfat subyektlərinin resurslarından optimal istifadə edilməsinə yönəldilmiş düzgün vergi siyasətinin həyata keçirilməsi tələb olunur.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Vergi hesabatı

***Vergi ödəyicisi vergi hesabatını qanunvericiliklə müəyyən edilmiş müddətdə təqdim etmədikdə hansı məsuliyyət daşıyır?***

Vergi Məcəlləsinin 16.1.4-cü maddəsinə əsasən, vergi hesabatını vergi orqanlarına qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada, auditor tərəfindən yoxlanılması nəzərdə tutulduğu hallarda isə auditor rəyi əlavə edilməklə təqdim etmək vergi ödəyicilərinin vəzifəsidir.

Məcəllənin 72.1-ci maddəsində deyilir ki, vergi hesabatı vergi bəyannaməsindən ibarətdir. Vergi Məcəlləsinin xüsusi hissəsinin müvafiq maddələrində (149, 150, 177.2, 192, 201.5, 208.2. 212.3, 217.3, 221.3, 221.5) hər bir vergi növü üzrə vergi hesabatının təqdim olunma müddətləri müəyyən edilmişdir.

72.2-ci maddəyə əsasən, Vergi Məcəlləsinə və qəbul edilmiş müvafiq qanunlara uyğun olaraq, vergi hesabatını verməyə borclu olan vergi ödəyiciləri hesabatı Vergi Məcəlləsində göstərilən müddətlərdə müvafiq icra hakimiyyəti orqanının (Vergilər Nazirliyi) müəyyənləşdirdiyi formada və yerdə vergi orqanına verməlidirlər.

Vergi hesabatları vergi ödəyicisi tərəfindən şəxsən və ya hesabatın təqdim edilməsi təsdiq oluna bilən hər hansı digər üsulla (rabitə təşkilatına təhvil verilməsi və ya müvafiq qanunvericiliyə uyğun olaraq elektron sənəd formasında göndərilməsi də daxil olmaqla) təqdim edilə bilər.

Vergi hesabatının elektron formada göndərilməsi müvafiq icra hakimiyyəti orqanının («Vergi hesabatının elektron sənəd formasında göndərilməsi Qaydası» Nazirlər Kabinetinin 27 iyul 2007-ci il tarixli 120 nömrəli qərarı ilə təsdiq edilmişdir) müəyyən etdiyi qaydada həyata keçirilir. Vergi hesabatını elektron sənəd formasında təqdim edən vergi ödəyicilərinə Vergi Məcəlləsinin 72.3-cü, 72.4-cü 72.6.3-cü və 72.6.4-cü maddələrinin müddəaları şamil edilmir.

Məcəllənin qeyd edilən müddəalarından göründüyü kimi, vergi ödəyiciləri vergi hesabatını Vergi Məcəlləsində göstərilən müddətlərdə vergi orqanına verməlidirlər. Vergi ödəyicisi tərəfindən vergi hesabatı əsas olmadan müəyyən edilən müddətdə təqdim olunmadıqda Məcəllənin 57.1-ci maddəsinə əsasən maliyyə sanksiyası tətbiq edilir.

Vergi Məcəlləsinin 57.1-ci maddəsində qeyd olunmuşdur ki, vergi hesabatını əsas olmadan müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən 40 manat məbləğində maliyyə sanksiyası tətbiq olunur. 54-cü (Vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb olunmanı istisna edən hallar), 55-ci (Vergi qanunvericiliyinin pozulmasında şəxsin təqsirini istisna edən hallar) və 74-cü (Hesabatın verilməsi müddətinin uzadılması) maddələrdə qeyd edilən hallar olduqda isə hesabatın Vergi Məcəlləsi ilə müəyyən edilən müddətdə vergi orqanına təqdim olunmamasına görə vergi ödəyicisinə maliyyə sanksiyası tətbiq edilmir.

# Elektron bəyannamə şəffaflığa zəmin yaradır

*Vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin genişlənməsi sahəsində görülən işlər nəticəsində vergi ödəyicilərinin əldə etdikləri mühüm imkanlardan biri də vergi bəyannamələrinin elektron formada göndərilməsidir. Vergi bəyannamələrinin elektron formada təqdim edilməsi üçün Vergilər Nazirliyinin rəsmi internet saytı -www.taxes.gov.az vasitəsilə xüsusi keçid və ya www.e-taxes.gov.az - İnternet Vergi İdarəsi, habelə Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemində (AVİS) elektron bəyannamələrin qəbulu və işlənməsi üzrə xüsusi proqram təminatı yaradılmışdır.*

İstifadəçi kodu, parol və şifrə - elektron bəyannamənin (hesabatın) təqdim edilməsi və onları təqdim edənlərin identikləşdirilməsi üçün xüsusi alqoritm vasitəsilə hazırlanan və vergi ödəyicisinə qapalı zərfdə verilən məxfi məlumatların kombinasiyasıdır. Vergi ödəyicisi elektron sənədlər mübadiləsinin aparıldığı iş yerinin təhlükəsizliyini müstəqil təmin etməlidir. Elektron sənəd mübadiləsinin aparılması üçün istifadə olunan istifadəçi kodu, şifrə və parol məxfi saxlanılmalı, onlar başqa şəxslərə istifadə üçün verilməməlidir. Unudulduqda və ya başqaları tərəfindən istifadə olunduğu bilindikdə isə dərhal vergi orqanına yazılı məlumat verilməlidir.

Sistemdə elektron mübadilənin aparılması üçün vergi orqanına təqdim olunan «Vergi hesabatlarının elektron sənəd formasında göndərilməsinə dair Ərizə»nin və «Vergi hesabatlarının elektron sənəd formasında göndərilməsi haqqında Müqavilə»nin forması Vergilər Nazirliyi tərəfindən təsdiq edilmişdir. Bu formalar, habelə zəruri proqram təminatları, onlardan istifadə qaydaları üzrə təlimat və digər metodik məlumatlar nazirliyin rəsmi internet saytında və İnternet Vergi İdarəsi saytında yerləşdirilmişdir. Bəyannamənin (hesabatın) və bildirişin elektron şəkildə tərtib və təqdim olunması üçün zəruri proqram təminatları Vergilər Nazirliyi tərəfindən hazırlanmışdır və müqavilə əsasında əvəzsiz olaraq (ödənişsiz) vergi ödəyicisinə verilir.

Vergi ödəyicisi vergi bəyannamələrini elektron şəkildə göndərmək üçün müvafiq Ərizə formasını bir nüsxədə, Müqavilə formasını isə iki nüsxədə doldurub imzalamalı (möhürləməli) və uçotda olduğu vergi orqanına təqdim etməlidir. Vergi orqanı vergi ödəyicisinin ərizəsini qəbul etdiyi tarixdən iki gün müddətində müqavilənin imzalanıb (möhürlənib) təsdiq edilməsini təmin edir. Müqavilə imzalandıqdan sonra onun bir nüsxəsi və elektron sənəd mübadiləsinin aparılması üçün zəruri istifadəçi kodu, şifrə və parol vergi ödəyicisinə qapalı zərfdə təqdim edilir.

Vergi ödəyicisi elektron sənəd mübadiləsi ilə bağlı Vergilər Nazirliyinin bütün təlimat və qaydalarına əməl etməli, elektron bəyannamənin (hesabatın) qanunvericilikdə müəyyən olunmuş müddətlərdə vergi orqanına göndərilməsini təmin etməli, sistem tərəfindən qəbul edilməmiş və səhv aşkar olunmuş bəyannamələri (hesabatları) yenidən hazırlayıb göndərməlidir. Vergi orqanına təqdim edilən elektron bəyannamələr (hesabatlar) və vergi orqanından daxil olmuş bütün elektron sənədlər 7 ildən az olmayan müddət ərzində saxlanılmalıdır.




Vergi bəyannamələrinin elektron formada vergi orqanına göndərilməsinin ciddi üstünlükləri vardır. İlk növbədə, vergi ödəyicisi vergi orqanına gəlmədən və vergi orqanının əməkdaşı ilə təmasa girmədən tam şəffaf şəkildə, onun üçün rahat olan mühitdə bəyannaməni internet vasitəsilə təqdim etmək imkanı qazanır. Müvafiq proqram təminatı vasitəsilə bəyannamənin tərtibinə və düzgünlüyünün yoxlanılmasına kömək göstərilir. Bundan başqa, vergi ödəyicisi bəyannaməni elektron formada göndərməklə öz şəxsi hesab vərəqəsi vasitəsilə büdcəyə olan borcları barədə məlumatlar əldə edir və s.

Elektron xidmətlərin üstünlükləri, ondan istifadə barədə aparılan təbliğat və izahat işləri nəticəsində 2013-cü ilin 11 ayı ərzində vergi ödəyiciləri tərəfindən bəyannamələrinin vaxtında təqdim edilməsi səviyyəsi 95%-ə çatmış, 90%-dən çoxu isə elektron formada internetlə vergi orqanlarına göndərilmişdir.

**Rəşad SADIQOV**

# Azərbaycanda sağlam biznes mühiti mövcuddur

*Azərbaycandakı biznes mühiti müxtəlif beynəlxalq təşkilatlar, maliyyə institutları, iqtisadi tədqiqat və rəy mərkəzləri tərəfindən son illər təqdir olunur, azad sahibkarlığın inkişafına yaradılan əlverişli şərait yüksək qiymətləndirilir. ABŞ-ın dövlət katibinin köməkçisinin müavini Erik Rubin Azərbaycanın sahibkarlıq sektorundakı inkişaf meyillərini dəyərləndirərkən dövlətin biznesə göstərdiyi dəstəyin əhəmiyyətini qeyd edib.*

Azərbaycanda Amerika Ticarət Palatasının («AmCham») Direktorlar Şurasının üzvləri ilə keçirilən görüşdə cənab Rubin ölkəmizdə azad biznesin inkişafına təkan verən prinsipial qərarların mühüm töhfə verdiyini diqqətə çatdırıb.

Erik Rubin Azərbaycan hökuməti ilə «AmCham» arasında qurulmuş səmərəli əməkdaşlığın mühüm əhəmiyyətini qeyd edərək, azad biznesə dəstəyin gücləndirilməsində bu təşkilatın rolunun əhəmiyyətli olduğunu xatırladıb. Qeyd olunub ki, biznes maraqlarını dəstəkləyən və təşviq edən özəl qeyri-kommersiya biznes assosiasiyası kimi «AmCham» 1996-cı ildən indiyədək Azərbaycan iqtisadiyyatının bütün bölmələrində fəaliyyət göstərən şirkətlərlə sıx əlaqələrə malikdir. Qurum Azərbaycanın maliyyə-bank, sığorta, vergi, gömrük, kredit, audit və digər sahələrində tərəfdaşları ilə birgə layihələrin təşkili və həyata keçirilməsində fəal rol oynayır. 260-dan artıq üzvü olan bu təşkilat Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsini dəyərləndirərək özəl sektorun və sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması, qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı rəy və təkliflərlə çıxış edir, iqtisadi inkişafa təkan verən proqramların müzakirəsində yaxından iştirak etməklə ciddi tərəfdaşa çevrilib.

Qeyd olunmuşdur ki, Azərbaycanda «AmCham»ın təşəbbüsü ilə bir neçə əsas qanuna əlavələr edilib, biznes mühitində yeniliklər edilib və ölkədə yerli və beynəlxalq biznes strukturları üçün daha rahat şərtlər tətbiq etmək barədə təkliflər dövlət tərəfindən müsbət qarşılanıb: «Azərbaycanda Amerika Ticarət Palatası ölkədə biznes mühitinin yaxşılaşdırılmasında böyük rol oynayır. Palata Azərbaycanda xarici investisiyaların 80%-ni, eləcə də yerli investisiyaların əhəmiyyətli hissəsini təmsil edir. «AmCham»ın sahə komitələrinin vasitəsilə Palatanın üzvləri məlumatlarla bölüşür, ümumi maraq doğuran məsələlər qaldırır və mümkün həllər təklif edir. Təşkilatın tərəfdaşları Azərbaycan və ABŞ hökumətlərinin biznes, informasiya və əlaqələr daxil olan geniş bazalarından istifadə etmək imkanı qazanır».

Azərbaycanda həyata keçirilən vergi islahatlarının, vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi ilə bağlı tədbirlərdə yaxından iştirak edən «AmCham» Vergilər Nazirliyinin də əsas tərəfdaşlarından biridir. Palata ölkədə biznes mühitini yaxşılaşdıran mükəmməl vergi qanunvericiliyinin olmasında maraqlı tərəf kimi çıxış edir. Son illər səmərəli əməkdaşlıq əlaqələri iqtisadiyyatın, vergi sisteminin müxtəlif sahələri ilə bağlı səmərəli müzakirələrin aparılmasına təkan verir. Ölkə iqtisadiyyatında, xüsusilə qeyri-neft sektorunda fəaliyyət göstərən şirkətlərin nümayəndələrinin, eləcə də maliyyə, bank, sığorta, vergi, audit sahəsində təcrübəli mütəxəssislərin iştirakı ilə müzakirələr keçirilir. Palata üç ildən artıqdır ki, vergi partnyorluğu, inzibatçılıq, vergitutma sahəsinə aid aktual mövzular ətrafında müzakirələrdə iştirak edir, təkliflər irəli sürür. Bu cür əməkdaşlıq hər iki tərəf üçün əhəmiyyətli platformanın yaradıldığını təsdiq edir.

**Elbrus CƏFƏRLİ**

# Sığorta şirkətləri ilə vətəndaşlar arasında münasibətlər düzgün qurulmalıdır

*Ölkədə vətəndaşların sığorta şirkətləri ilə müqavilələr bağlaması gözlənilməz hadisələr baş verən zaman risklərin azaldılmasına şərait yaradır. Ötən illərlə müqayisədə ölkədə son dövrlər sığorta bazarında canlanma və rəqabət müşahidə olunur. Hazırda insanların sığorta şirkətlərinə etibarı daha yüksəkdir. Bununla belə, vətəndaşların sığorta məsələlərindən məlumatsızlığı onları bəzi hallarda sığorta şirkətləri ilə qarşı-qarşıya qoyur.*

### Hər iki tərəf məsuliyyət daşıyır

Sığorta şirkətlərindən narazılıq halları, bütün dünyada olduğu kimi, Azərbaycanda da müşahidə olunur. Maliyyə Nazirliyi yanında Dövlət Sığorta Nəzarəti Xidmətinin rəisi Namiq Xəlilov bu narazılıqların kütləvi xarakter daşımadığını deyir. Sığorta şirkəti ilə müqavilə bağlayan şəxs arasında yaşanan belə narazılıqların əsas səbəblərindən biri sığorta olunanın bu sahədə məlumatsız olmasıdırsa, digər səbəb sığorta agentlərinin kifayət qədər vətəndaşı məlumatlandırmağa çalışmamasıdır.

Sığorta agenti sığortaçıya sığorta müqaviləsinin bağlanması, yenilənməsi və ya davam etdirilməsi üçün vasitəçilik edən, sığortalılara sığorta şərtləri barədə məlumat verən şəxsdir. O, sığortalıya qaranlıq qalan məqamlar barədə məlumat verməyə borcludur. Çünki hər bir sığorta agenti təmsil etdiyi sığorta şirkətinin simasıdır və həmin sığorta şirkətlərinə etimadın yaranmasında başlıca səbəbkardır. Sığorta agentləri sığorta nəzarəti orqanının müvafiq lisenziya əsasında fəaliyyət göstərirlər. Azərbaycan Sığortaçılar Assosiasiyasının sədri Orxan Bayramov mətbuata açıqlamasında bildirib ki, hazırda lisenziyası ilə fəaliyyət göstərən agentlərin sayı 250-dir və hər ay lisenziya almaq üçün quruma 30-40 agent müraciət edir. ASA sədri həmçinin qeyd edib ki, gələn ilin yanvar ayında sığorta agentləri üçün təlim mərkəzlərinin yaradılması planlaşdırılıb. Həmçinin, sığorta agentlərinin satış texnikalarının dəyişdirilməsi və keyfiyyətin artırılması üçün xaricdən ekspertlər dəvət olunacaq. Gözlənilir ki, sadalananlar bu sahə üzrə fəaliyyət göstərən şəxslərin işində müsbət dəyişikliklərə səbəb ola biləcək.

### Nələrə diqqət yetirilməlidir?

Bəzi hallarda sığortalının sığorta şirkəti ilə müqavilə bağlayarkən müqavilə şərtlərinə diqqət yetirməməsi səbəbindən, sığorta hadisəsi baş verən zaman sığortalı öz gözləntilərinin əksi ilə üzləşir ki, bu da nəticədə sığorta şirkətlərinə olan inamın sarsılmasına gətirib çıxarır.

Azərbaycan Sığortaçılar Assosiasiyası vətəndaşları sığorta müqaviləsi bağlayarkən diqqətli olmağa çağırır və sığorta şirkətləri tərəfindən aldanmamaq üçün əsas məqamlara fikir verməyi vacib hesab edir.

İlk olaraq, vətəndaş gələcəkdə baş verəcək sığorta hadisələri zamanı məyus olmamaq üçün məzmunu aydın olmayan və ya şübhə doğuran sənədi imzalamaqdan çəkinməli, müqavilənin imzalanma prosedurunda həddən artıq diqqətli olmalıdır. Sığorta şirkətinin əməkdaşlarına, sığorta agentlərinə şübhələri dəf etmək üçün suallar verməkdən çəkinməməlidirlər. Bəzən sığorta qaydalarında elə incəliklər ola bilər ki, bundan sığorta şirkətləri sığorta ödənişinin verilməsinə etiraz etmək və ya ödənişin verilməsini uzatmaq məqsədilə istifadə edə bilər. Bu baxımdan, yaxşı olar ki, müqavilə bağlamaq istəyən şəxs müqavilə şərtlərini tam aydınlaşdırmaq üçün hüquqşünasların yardımından istifadə etsin.

Sığorta şirkəti ilə müqaviləni imzaladıqdan sonra riayət olunması vacib olan daha bir mühüm qayda da var. Çoxları yanlış olaraq düşünür ki, sığorta etdirənin vəzifəsi yalnız sığorta haqqını ödəməkdən ibarətdir. Əslində isə zərər yarandığı halda sığorta etdirənin də üzərinə müəyyən vəzifələr düşür. O, mümkün ola biləcək ziyanın azaldılması üçün bütün tədbirləri görməli, sığortaçının tələb etdiyi bütün sənədləri toplamalı, ekspert araşdırmalarında iştirak etməlidir və s.

Bəzən sığortaolunanlar hiylə yolu ilə sığorta şirkətlərindən ödəniş almaq üçün dəymiş zərəri təhrif etmək, şişirtmək, uydurmaq, təfsilatları öz xeyrinə dəyişdirmək kimi vasitələrdən istifadə edirlər. Sığortaçılar Assosiasiyası məsələyə bu mövqedən yanaşmanın heç də yaxşı çıxış yolu olmadığını bildirir. Bütün sığorta şirkətləri fırıldaqçıları müəyyənləşdirməyi və cəzalandırmağı artıq öyrəniblər. Çox zaman bu ifşalar ödənişə etiraz edilməsi, uzunmüddətli məhkəmə çəkişmələri, bəzi hallarda isə cinayət məsuliyyətinə cəlb olunma ilə nəticələnir. Ona görə də gələcəkdə sığorta şirkətləri ilə problemin yaşanmaması üçün vətəndaşlar hər bir nüansa fikir verməlidirlər.

**AYTƏN**



# Nağdsız ödənişlərin mühüm vasitəsi

Mərkəzi Bank (MB) tərəfindən bu günlərdə hökumətə təqdim olunmuş «Elektron ödəniş xidmətləri» haqqında qanun layihəsində nağdsız hesablaşmaların stimullaşdırılmasına xidmət edən bir sıra tədbirlər nəzərdə tutulub. Əsas tədbirlərdən biri Azərbaycanda ticarət və xidmət sektorunda əməliyyatların həyata keçirilməsində elektron pullardan (e-pul) istifadəni reallaşdırmaqdır.

MB İdarə Heyətinin sədr müavini Alim Quliyev bildirib ki, hazırda e-pulların emissiyası ilə əlaqədar banklar, kredit qurumları, iaşə-ticarət, xidmət strukturları və digər təşkilatlarla müsakirələr aparılır, onların təklifləri öyrənilir. Qanun layihəsi qəbul edildikdən sonra prosesin həyata keçirilməsi qaydaları, tərəfdaş təşkilatlarla əməkdaşlığın meyarları, digər tələblər müəyyənləşəcək.

MB rəsmisi bildirib ki, elektron pul - elektron formada ödəniş kartının çipində və ya serverdə saxlanılaraq qəbul edilən pul vəsaiti məbləğində emissiya olunan, emitentlə yanaşı digərləri tərəfindən də ödəniş vasitəsi kimi qəbul edilən və ödəniş tranzaksiyalarının həyata keçirilməsinə imkan verən alət hesab olunur. E-pul vasitəsilə nağdsız çıxarış formada, limitləşdirilmiş məbləğdə alış-verişin həyata keçirilməsi mümkündür. Elektron pulların buraxılışı ölkədə nağdsız ödənişlərin həcminin artmasına gətirib çıxaracaq, ödəniş xidmətlərinin daha effektiv və təhlükəsiz formada təqdim olunmasını, maliyyə xidmətlərinə geniş çıxış imkanlarının yaradılmasını, şəffaflığı təmin edəcək.

Azərbaycan e-pulların tətbiq olunmasında ABŞ və Avropanın bir sıra inkişaf etmiş ölkələrinin təcrübəsini öyrənib. Qeyd edək ki, həmin ölkələrdə e-pulların 2015-ci ilədək nağd pulları əvəz etməsi məsələsi gündəlikdədir.

Bank sahəsi üzrə mütəxəssis Oqtay Məmmədovun qeyd etdiyinə görə, elektron pullar hazırda dünya ölkələrində nağdsız ödəniş vasitəsi kimi geniş istifadə olunur. Bəzi ölkələr xüsusi ödəniş kartları emissiya edir və bu şifrələnmiş kartlarda vətəndaşların pul hesabları olur.

Mütəxəssis bildirir ki, e-pulların tranzaksiyası plastik kartlarla aparılan əməliyyatlara oxşasa da, fərqlər də mövcuddur. Plastik kartlardan fərqli olaraq e-pullarda bankomatların, POS-terminalların oxuya biləcəyi xüsusi ştrixlər, təhlükəsizlik elementləri var. Bu pulların sahibləri öz vəsaitlərini proqram vasitəsilə istənilən anda izləyə bilirlər. Pulun bu növü dünyada ən güclü və son innovasiyalara əsaslanan təhlükəsizlik sistemləri ilə təchiz edilib, tranzaksiyalar «PCI DSS» standartının tələblərinə uyğunlaşdırılıb. Pul sahiblərinin hesablarının məxfiliyinin təmin edilməsi üçün 10-dan çox kodlaşdırılmış mühafizə elementi yaradılıb. E-pul əməliyyatlarının təhlükəsizliyinə təminat verən ən mühüm vasitələrdən biri bu sistemin tamamilə «3D secure» təhlükəsizlik texnologiyasına uyğunlaşdırılmasıdır.



Elektron pul vasitəsilə nağdsız formada, limitləşdirilmiş məbləğdə alış-verişin həyata keçirilməsi mümkündür

Ekspertlərin fikrincə, e-pul nağdsız ödənişlərin bir növüdür. Nağdız ödəniş zamanı bank rekrevizitləri qarşı tərəfə verilir, elektron pulun üstünlüyü isə ondadır ki, burada pulun sahibi bilinmir. İqtisadçı e-pulların ən sərfəli formalarından biri kimi smart kartların ölkəmizdə tətbqini məqsədəuyğun sayır. Bu kartların öz prosessoru, yaddaşı, proqram təminatı və kompüter sisteminə giriş-çıxışı mövcuddur. Smart kart pulların köçürülməsi haqqındakı yazılışların və ya müştəri barədə informasiyanın daxil edildiyi debet kartı kimi istifadə olunur. Amma bu kartlarla əməliyyatlar zamanı ödənişin təsdiqlənməsi üçün prosessinq mərkəzi ilə əlaqə qurulmasına ehtiyac yoxdur. Bu, kompüter bazasındakı proqram vasitəsilə həyata keçirilir. Ödəmə sisteminin tərkibinə xidmətlər şəbəkəsini yaradan ticarət və xidmət işləri də daxildir.

Azərbaycanda İKT-nin hazırkı inkişaf potensialı və qarşıdakı dövrdə nəzərdə tutulan layihələrin icrası sayəsində e-pullara keçid mümkündür. Bu məqsədlə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə də müvafiq əməkdaşlığın qurulması vacib hesab olunur. Eyni zamanda, bank və kredit qurumlarının bu prosesdə hansı formada iştirakı ilə bağlı tələblər müəyyənləşməlidir. Ticarət və satış məntəqələrində müvafiq qurğuların quraşdırılması, xüsusi kommunikasiya proqramlarının hazırlanması və e-pul sisteminə qoşulması da tələb olunan şərtlərdəndir. Bankların öz infrastrukturlarını buna uyğun qurması təmin olunduqdan sonra ölkəmizdə e-pulların tətbiqinə başlanıla bilər.

MB elektron pullarının buraxılışının pul dövriyyəsinin tənzimlənməsi baxımından əhəmiyyətini nəzərə alaraq, bu istiqamətdə müəyyən izahedici təbliğat və maarifləndirmə tədbirlərinin aparılmasını da vacib hesab edir. İnsanların bu sistemə, ümumiyyətlə, nağdsız iqtisadiyyata inamını gücləndirməklə nağd ödənişlərin həcminin əhəmiyyətli dərəcədə azalmasına nail olmaq mümkündür.

Onu da qeyd edək ki, Azərbaycanın bəzi bankları elektron pul layihəsinə oxşar ödəniş vasitələrini istifadəyə verib. Beynəlxalq Bankın müştərilərə təqdim etdiyi «WebMoney» sistemi vətəndaşların elektron pul kisəsi yaratmasına imkan verir. İnternet şəbəkəsində xüsusi elektron pul kisəsi vasitəsilə hesablaşmaların aparılmasına imkan yaradan beynəlxalq ödəniş sistemi - «WebMoney» həm də etibarlı təhlükəsizlik elementlərinə malikdir. Bu sistemdə pul kisəsinə malik olan müştəri xüsusi identifikasiya nömrəsi vasitəsilə pullarına nəzarət edir. Amma bu sistemin əməliyyatlarının avro və ABŞ dolları üzərində qurulması Azərbaycanın nağdsız hesablaşmalar bazarına təsirini azaldır. Bank mütəxəssisləri isə yaxın vaxtlarda «WebMoney» əməliyyatlarında milli valyutanın istifadəsini istisna etmirlər.

**Elbrus CƏFƏRLİ**

# Əhali arasında maarifləndirmə işləri gücləndirilir

## "Vergi dostları" layihəsinin iştirakçıları aparılan təbliğat və məlumatlandırma işinin maraqla qarşılandığını bildirirlər

*Ölkədə vergi mədəniyyətinin yüksəldilməsinə, xüsusilə də yeniyetmə və gənclərə vergilərlə bağlı zəruri bilikləri aşılamağa xüsusi önəm verən Vergilər Nazirliyinin bu məqsədlə son illər həyata keçirdiyi layihələrdən biri də «Vergi dostları»dır. Layihənin məqsədi cəmiyyətin fəal sosial zümrəsi olan müəllimlərin iştirakı ilə müasir kommunikasiya vasitələrinin məhdud olduğu qəsəbə və kəndlərdə insanları maarifləndirməkdir.*

Xüsusi treninq keçərək vergilər sahəsində zəruri bilik və məlumatlara yiyələnən və «Vergi dostları» layihəsinin iştirakçısı olan müəllimlər yaşadıqları ərazilərdə üzərlərinə götürdükləri missiyanı səylə yerinə yetirməyə çalışırlar.

Bu günlərdə 5 saylı Ərazi Vergilər İdarəsində (ƏVİ) «Vergi dostları» layihəsinin icra vəziyyətinə, habelə qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş «Açıq qapı» günü keçirilib. 5 saylı ƏVİ-nin Vergi ödəyicilərinə xidmət şöbəsinin rəisi İlkin Dövlətovun bildirdiyinə görə, tədbirdə Neftçala və Salyan rayonundan müəllimlər, habelə bir sıra orta ümumtəhsil məktəblərinin şagirdləri iştirak ediblər. «Vergi dostları» layihə çərçivəsində gördükləri işlər barədə tədbir iştirakçılarına geniş məlumat veriblər, orta məktəb şagirdlərinin 5 saylı ƏVİ-nin fəaliyyəti, habelə vergilərlə bağlı çoxsaylı sualları cavablandırılıb.

«Vergi dostları» layihəsinin Neftçala rayonu üzrə metodisti Ülvi Fərzəliyev yaşadığı ərazidə və bir sıra orta məktəblərdə vergilərlə bağlı aparılan maarifləndirmə və təbliğat işinin əhəmiyyətini vurğulayıb: «Layihənin iştirakçısı olduğum ilk gündən fəaliyyətimi konkret iş planı əsasında qurmağa çalışıram. Son bir ildə Neftçala rayonunun bütün ümumtəhsil məktəblərində şagird və müəllimlərlə görüşlər keçirmişəm. Etiraf etməliyik ki, bu gün orta məktəblərdə uşaqların vergilər haqqında bilikləri arzu olunan səviyyədə deyil. Ona görə də «Sinif təşkilatı saatları»nda və «Həyati bacarıqlara əsaslanan təhsil» adlı fakültativ məşğələlərdə vergi mövzusuna xüsusi yer ayrılması ilə bağlı razılığa gəlmişik. «Vergi dostları» olan məktəblərdə bu işi onlara, olmayan məktəblərdə isə «İqtisadiyyatın əsasları» fənnini tədris edən müəllimlərə həvalə etmişik. «Sinif təşkilatı saatları»nda sinif rəhbəri həmin müəllimi vergi mövzusunda çıxış etmək üçün dəvət edir. Məktəb direktorları ilə əldə olunmuş razılığa görə, «Həyati bacarıqlara əsaslanan təhsil» fakültativ məşğələsini tədris edən «vergi dostu»nun və ya iqtisadiyyat müəlliminin dərs yükü artırılacaq. Bununla onlara vergi mövzusunda təbliğat aparmaq üçün əlavə stimul yaradılmış olacaq».

Ü.Fərzəliyevin sözlərinə görə, peşəsindən, statusundan asılı olmayaraq vergi hər bir insanın fəaliyyəti ilə bağlı sahədir: «Ona görə də rayonda «vergi dostları»nın təşkil etdiyi tədbirlərə maraq kifayət qədər böyükdür. «Vergi dostları»nın iştirakı ilə ayrı-ayrı vaxtlarda müxtəlif kənd və qəsəbələrdə təşkil etdiyimiz görüşlər bunu bir daha təsdiqləyir. Ötən müddətdə Mayak kənd 1 saylı kənd tam orta məktəbinin şagirdlərinə «Vergi tarixi» mövzusunda mühazirə oxunub. Mikayıllı kəndindən olan «vergi dostu» Rəşad Orucovun yerli fermerlər üçün təşkil etdiyi maarifləndirici tədbir böyük maraqla qarşılanıb. Həmin tədbirdə fermerlərin vergilərlə bağlı müxtəlif sualları cavablandırılıb. Şirvanlı kəndində isə müəllimlər üçün «Gəlir vergisi və onun dövlətin inkişafında rolu» mövzusunda mühazirə təşkil edilib, onlara zəruri tövsiyələr verilib. Yaxın günlərdə «vergi dostu» Nicat Cəfərovun təşkilatçılığı ilə Qaçaqkənddə çalışan iş adamları ilə görüşməyi planlaşdırırıq».

Belə görüşlərin bundan sonra davamlı şəkildə keçiriləcəyini deyən Ü.Fərzəliyev onlara göstərilən dəstəyə görə vergi orqanlarına minnətdarlığını ifadə edib: «Dekabrın 6-da «vergi dostları»nın və orta məktəb şagirdlərinin 5 saylı ƏVİ-də təşkil olunmuş görüşü maraqlı keçdi. Ümumiyyətlə, belə görüşlərin təşkili rayon ictimaiyyətinin vergi sahəsində məlumatlandırılması baxımından çox vacibdir. Bu işdə bizə dəstək olan vergi orqanlarına öz minnətdarlığımızı bildiririk».

Salyan rayonu Aşağı Kürkənd kənd tam orta məktəbinin müəllimi, «Vergi dostu» layihəsinin iştirakçısı İlkin Kərimov da insanların vergi ilə bağlı zəruri bilikləri öyrənməyə səy göstərdiklərini diqqətə çatdırıb: «Vergi dostu» layihəsinə qoşulandan sonra vergilər sahəsində kifayət qədər geniş məlumatlar, zəruri biliklər əldə etdim. Son bir ildə həmin bilikləri orta məktəb şagirdlərinə və yaşadığım ərazidəki insanlara çatdırmaq üçün sistemli iş aparıram. Eyni zamanda, həmkarlarıma şagirdlərdə vergi mədəniyyətinin yüksəldilməsi ilə bağlı müəyyən tövsiyələr verirəm.

Kəndlərdə əhalinin sıx toplaşdığı yerlərdə, müəyyən mədəni-kütləvi tədbirlərdə dövlətimizin vergi siyasəti, sosial-iqtisadi inkişafda vaxtında ödənilən verginin rolu və s. kimi mövzularda söhbətlər aparıram. Bundan başqa, iş adamlarına rayon ərazisində fəaliyyət göstərən vergi ödəyicilərinə xidmət mərkəzinin ünvanı, orada göstərilən xidmətlər barədə ətraflı məlumat verirəm».

İ.Kərimov bildirib ki, şagirdlərin vergi sahəsində biliklərinin yüksəldilməsi üçün orta məktəblərdə müxtəlif tədbirlərin təşkili də diqqət mərkəzindədir: «Məktəblilərlə istər tədris prosesində, istərsə də dərsdənkənar vaxtlarda vergilər haqqında söhbətlər aparır, vergiyə aid biliklərin mənimsənilməsinə diqqət yetiririk. Kassa çekinin tələb edilməsinin zəruriliyi, nağdsız ödənişlərin üstünlükləri, elektron xidmətlərdən istifadə və digər mövzular ətrafında apardığımız maarifləndirici söhbətlər maraqla qarşılanır. Tədris ili müddətində vergilərə aid viktorina və «dəyirmi masa»ların keçirilməsi də planlaşdırılır. Bütün bunlar əhali arasında maarifləndirmə işinin canlandırılmasına böyük ehtiyac olduğunu göstərir».

**Samir MUSTAFAYEV**

# Mərkəzi Bank biznes krediti üzrə faiz dərəcələrini azaltmağı nəzərdə tutur

*Azərbaycanda özəl sektorun inkişafı yönündə həyata keçirilən tədbirlərdən biri də sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsidir. 2013-cü ildə Sahibkarlığa Kömək Milli Fondunun (SKMF) vəsaitləri hesabına sahibkarlıq subyektlərinin 4260 investisiya layihəsinin maliyyələşdirilməsinə 270,4 milyon manat güzəştli kredit verilib.*

Fond güzəştli kreditləri iş adamlarına cəmi 7%-lə təklif etdiyi halda, kommersiya banklarının əksəriyyətində bu göstərici 14-17% arasında dəyişir. Buna görə də Azərbaycanda investisiya kreditlərinin faiz dərəcələri yüksəkdir və problemin həlli üçün bankların mərkəzləşmiş kredit resurslarına çıxışının sadələşdirilməsinə ehtiyac var.

Məcələ Azərbaycan Mərkəzi Bankının (MB) da diqqət mərkəzindədir. Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov bu günlərdə mətbuata açıqlamasında bildirib ki, biznes kreditlərinin faiz dərəcələrinin aşağı salınması üçün müəyyən tədbirlər görüləcək. Onun sözlərinə görə, MB-nin strateji hədəfi biznes kreditlərinin faiz dərəcələrinin birrəqəmli səviyyəyədək azaldılmasıdır.

Biznes kreditlərinin faiz dərəcələrinin yüksək olması, ilk növbədə, istehlak kreditlərinə tələbatın gündən-günə artması ilə əlaqələndirilir. Kreditlərə olan yüksək ictimai tələbat fonunda kommersiya bankları daha az dividend gətirən biznes kreditlərinin verilməsinə o qədər də maraq göstərmirlər. Bu reallığı MB İdarə Heyətinin sədri E.Rüstəmov da təsdiq edib: «Ölkədə istehlak kreditlərinə yüksək tələbat var və bu seqment güclü inkişaf dövrünü yaşayır və bazarda tələb təklifi üstələyir. Lakin həyata keçirilən tədbirlər ona gətirib çıxarmalıdır ki, istehlak kreditləşməsi bazarı təklif bazarına çevrilsin. Bundan sonra təklif bazarı bu cür biznes kreditlərinin seqmenti olacaq və gələcəkdə bu sahədə faiz dərəcələri birrəqəmli səviyyəyədək azala bilər».

İqtisadçı ekspert Samir Əliyev kommersiya banklarının daha çox istehlak krediti verməkdə maraqlı olduğu qənaətindədir. Onun sözlərinə görə, kredit bazarında istehlak kreditlərinin payının getdikcə artması real sektorun maliyyələşməsinə mənfi təsir göstərən amildir: «İstehlak kreditlərinin biznes kreditlərindən baha olması ona çəkilən xərcin çoxluğu ilə şərtlənir. Buna görə də istehlak kreditlərinin payı artdıqca ölkə üzrə kredit faizləri də artır. Banklar isə bu tələb qarşılığında daha çox istehlak kreditləri təklif edirlər. İstehlak kreditləşməsi nisbətən daha etibarlı kreditləşmə sayılır. Bundan fərqli olaraq, banklar nisbətən riskli sahə olan kənd təsərrüfatına kredit vermək istəmirlər».




Kommersiya banklarının təmsilçiləri isə Azərbaycanda biznes və istehlak kreditlərinin həddən artıq baha olması fikri ilə razılaşmırlar. Hesab olunur ki, əksər MDB və inkişaf etmiş ölkələrlə müqayisədə Azərbaycandakı faiz dərəcələri elə də yüksək deyil. Eyni zamanda, əhalinin bu kreditlərə böyük tələbatı səbəbindən, banklar daha çox istehlak kreditlərinin verilməsinə meyil edirlər.

«UniBank»ın icraçı direktoru Cəlal Qasımov hesab edir ki, Azərbaycanda kreditləşmə üzrə faiz dərəcələri Rusiya, Ukrayna və digər ölkələrlə müqayisədə kifayət qədər münasibdir: «Məsələn, ekspress-kreditləşdirmə üzrə ixtisaslaşmış «HomeCreditbank», «Russkiy Standart» və digər banklarda faiz dərəcələri 70% və ya daha yüksəkdir. Bizim bazarda bütün komissiya haqları və ödəmələr daxil olmaqla, ekspress kreditlər üzrə faiz dərəcələri 30-35% arasında dəyişir. Gələcəkdə faiz dərəcələrinin daha da arta biləcəyini düşünmürəm. Bu, əvvəla, tələbatın azalmasına gətirib çıxara bilər. İkincisi, bank seqmentində artan rəqabət fonunda belə bir hadisə baş verməyəcək. Lakin bir sıra səbəblərdən faiz dərəcələrinin aşağı düşməsi də real görünmür. Çünki bazarda rəqabət artdıqda marketinq, informasiya texnologiyaları, filial şəbəkəsinin saxlanılması, xidmət keyfiyyətinin yaxşılaşdırılması xərcləri də artır».

«Dəmirbank»ın İctimaiyyətlə əlaqələr departamentinin baş mütəxəssisi Pərviz Sədrəddinov isə bildirir ki, kommersiya bankları faiz dərəcələrinin aşağı salınması məsələsinə nisbətən ehtiyatlı yanaşmaq məcburiyyətindədirlər. Onun fikrincə, bu amil bankların əhalidən depozit cəlb etmək imkanlarına bilavasitə təsir göstərir: «Pula olan tələb də faiz dərəcəsindən asılı olaraq dəyişir. Məsələn, faiz dərəcələri azaldığı zaman kreditlərə tələb artır, insanların banklara əmanət qoymaq meyli isə azalır. Bu zaman iqtisadi subyektlər daha çox kredit almağa meyil göstərir, əllərində olan nağd pulu banklarda aşağı faizlə saxlamaqdansa xərcləməyə çalışırlar. Nəticədə məcmu tələb artır ki, bu da həm iqtisadi artıma və məşğulluğa, həm də inflyasiyaya artırıcı təsir göstərir. Faiz dərəcələri nisbətən artdıqda kreditlərə tələb azalır, insanların banklara əmanət qoymaq meyli güclənir. Nəticədə iqtisadi subyektlər daha az kredit alırlar və qazandıqları pulun çox hissəsini xərcləməyərək yığıma yönəldirlər. Beləliklə də məcmu tələb daralır və inflyasiyanın azalması üçün şərait yaranır».

**S.MUSTAFAYEV**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# KİV-lərin aldıqları yardımlar (qrantlar) üzrə qeyri-sahibkarlıq fəaliyyətinin auditi

Son zamanlar dövri mətbu nəşrlərin (qəzet və jurnalların) istehsalı ilə məşğul olan və elektron informasiya agentlikləri hesab edilən KİV-lərin, həmçinin jurnalist yönümlü ictimai təşkilatların (QHT-lərin) Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu (KİVDF) tərəfindən təqdim edilən qrant müsabiqələrində iştirakı artmışdır. Bu şəkildə Fond tərəfindən müxtəlif istiqamətlər üzrə KİV layihələrinin maliyyələşdirilməsi KİV-lərin uçotunda dəyişikliklər və əlavələr edilməsini zəruri edir.

Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, qaçqın və məcburi köçkünlərin problemlərinin həlli, elm və təhsilin inkişaf etdirilməsi, ekologiya və ətraf mühitin mühafizəsi, uşaq və gənclərin fiziki və mənəvi inkişafı və sair sosial sahələrin inkişafını dəstəkləyən məqalələrin (informasiyaların) dərc edilməsi məqsədilə KİVDF tərəfindən yardım şəklində verilən bu vəsaitləri qrant da adlandırmaq olar. Yardım vəsaitlərini qəbul edən KİV-lərin əksəriyyəti kiçik sahibkarlıq subyektləridir və onların da böyük hissəsi sadələşdirilmiş vergi ödəyiciləridir. Yardım alan KİV-lər icərisində fərdi sahibkar kimi fəaliyyət göstərən fiziki şəxslər də ola bilər. Lakin, alınan qrantların və digər yardımların vergilərə cəlb olunmayacağını zənn edərək, bəzi KİV-lər tərəfindən uçota qarşı biganə yanaşmaların olması halları istisna deyildir.

Qrant alan KİV-lər tərəfindən Fonda təqdim olunan layihələrin yerinə yetirilməsi məqsədilə əldə etdiyi maliyyələşmələrin uçotunun ayrıca aparılması vacib məsələdir. Hazırda fəaliyyət göstərən və Fonda KİV qismində layihə təqdim edən təsərrüfat subyektlərinin əksəriyyətinin (QHT-lər istisna olunmaqla) kommersiya hüquqi şəxsləri və ya fərdi sahibkarlar olduğunu nəzərə alsaq, deməli, onların əsas məqsədləri mənfəət əldə edilməsinə yönəldilən sahibkarlıq fəaliyyətidir. Lakin Fonda təqdim olunan layihələrin yerinə yetirilməsi qeyri-sahibkarlıq məqsədi daşıdığına görə ,KİV-lər Fonddan və digər mənbələrdən əldə etdikləri qrantların daxil olmasının və xərclənməsinin uçotunu bütün digər (sahibkarlıq) istiqamətdəki fəaliyyəti ilə bağlı gəlir və xərclərinin uçotundan ayırmalıdır, baxmayaraq ki, bu proses KİV-lərin uçotunun aparılmasının bir qədər mürəkkəbləşməsinə gətirib çıxaran səbəbdir.

KİV-lərin ümumi qaydada xərcləri aşağıdakılardan ibarət ola bilər:

- *işçilərin (jurnalistlərin və digər inzibati işçilərin) əməkhaqqı.*
- *sosial sığorta ayırmaları;*
- *material (kağız, digər nəşr malları);*
- *amortizasiya xərcləri;*
- *kənardan qəbul edilən xidmət xərcləri (çap, kommunal, icarə, ezamiyyə, müəllif, informasiya alqısı, tərcümə, müxtəlif tədbirlərin, təlimlərin və konfransların təşkili və sair);*
- *vergi (torpaq, yol, əmlak, sadələşdirilmiş və s.) xərcləri;*
- *sair (yardım, cərimə, sanksiya, faiz, məzənnə, qiymətdəndüşmə, fövqəladə və digər) xərclər.*

İstər daxili audit, istərsə də kənar audit zamanı yuxarıda göstərilən xərclərdən qrant (layihə) xərclərinin uçotunun ayrı aparılması yoxlanılmalıdır.

Fonddan alınan vəsaitlərin vergitutmaya təsiri bu vəsaitlərin xərclənməsinin düzgünlüyü ilə əlaqələndirilməlidir. Vergi Məcəlləsinin sadələşdirilmiş vergi ödəyicisi üçün vergitutma obyektini bildirən 219.1-ci maddəsində göstərilir ki, hesabat dövrü ərzində vergi ödəyicisi təqdim edilmiş mallara (işlərə, xidmətlərə) və əmlaka görə əldə olunmuş ümumi hasilatın, habelə satışdankənar gəlirlərin (ödəmə mənbəyində vergi tutulmuş gəlirlər istisna edilməklə) həcmi vergitutma obyektidir. Fonddan alınan vəsait isə qanunla nəzərdə tutulmuş qaydada konkret məqsədlər üçün verilən yardımdır və KİV-lər üçün əldə edilmiş yardım malların (işlərin, xidmətlərin) təqdim olunması sayıla bilməz. Deməli, sadələşdirilmiş vergi ödəyicisi olan KİV-in əldə etdiyi qrant vəsaiti sadələşdirilmiş vergitutma obyektinə aid deyildir.

Mənfəət vergisinin ödəyicisi olan KİV-lər üçün isə belə vəsaitlər mənfəət vergisinin bəyannaməsində eyni məbləğdə həm gəlirlərə, həm də xərclərə aid edildiyinə görə, dolayısı ilə mənfəətin və mənfəət vergisinin dəyişməsinə təsir etmir.

Qrant xərcləri yalnız layihə büdcəsində göstərilən istiqamətlər üzrə düzgün xərcləndiyi və Fondla bağlanılan müqavilənin şərtlərinə uyğun olduğu halda, bu əməliyyatlar üzrə sadələşdirilmiş və ya mənfəət vergisi yaranmaya bilər. Audit zamanı qrant müqaviləsi şərtlərindən (layihə büdcəsindən) kənar xərclənən vəsaitlər aşkar olunduğu halda, bu vəsaitlər KİV-in vergiyə cəlb olunan gəliri kimi qiymətləndirilməlidir.

# Beynəlxalq uçotun aparılmasında tətbiq olunan qaydalar

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

**Əvvəli ötən sayımızda**

Mühasib faktları müəyyən etmək üçün sənədləri iki mənbədən əldə edir. Yəni mühasib həm işlədiyi müəssisədə (təsərrüfat subyektində) tərtib edilən sənədləri, həm də başqa təsərrüfat subyekti tərəfindən tərtib olunmaqla mühasibin işlədiyi təsərrüfat subyektinə aidiyyəti olan sənədləri toplamalı və həmin sənədlərin uçotda əks etdirilməsini, arxivləşdirilməsini və sonradan təkrar axtarışını asanlaşdıran (sürətləndirən) vəziyyətdə çeşidlənməsini (qruplaşdırılmasını) həyata keçirməlidir.

Sənədlərin çeşidlənməsini aşağıdakı formada aparmaq olar:

*1. Pul sənədləri.* Bura pul vəsaitlərinin mədaxilini, məxaricini və bütün hallardakı hərəkətini əks etdirən sənədləri aid etmək olar. Məsələn, kassa mədaxil orderi, kassa məxaric orderi, pulun verilməsinə dair əmr (və ya hər hansı göstəriş sənədi), ümumi qaydada tərtib olunan əməkhaqqının (mükafatın, yardımların, qanunvericiliklə nəzərdə tutulan əməkhaqqına əlavələrin) ödəniş cədvəli, pulun malsatanın (iş görənin, xidmət göstərənin) nümayəndəsinə verilməsini əsaslandıran qarşı tərəfin etibarnaməsi, lazım olduğu halda pulu alan şəxsin şəxsiyyət vəsiqəsinin surəti, müəssisədaxili tələb olduğu halda, kassirin tərtib etdiyi özəl hesabat. Məsləhət görülür ki, bilavasitə alışlara və satışlara aidiyyəti olan aşağıda göstərilən sənədlər kassa sənədlərinə qarışdırılmasın. Sənədlərin bu qaydada çeşidlənməsinin əhəmiyyəti vardır.

*2. Malların (işlərin, xidmətlərin) alışı sənədləri.* Bura malsatanlarla bağlanılan alqı-satqı müqaviləsi, müqavilənin tərkib hissəsi hesab olunan protokollar, əlavələr və dəyişikliklər, malsatan tərəfin təqdim etdiyi qaimə-faktura, malların malsatandan təhvil alınaraq gətirilməsini həyata keçirmək üçün nümayəndəyə (mal alıcısının göndərdiyi işçisinə) verilən etibarnamənin kötüyü, müəssisəyə (sifarişçiyə) xidmət göstərən icraçı təsərrüfat subyekti ilə bağlanılan «xidmətlərin göstərilməsi haqqında» müqavilə, həmin müqaviləyə əlavə və dəyişikliklər, icraçı tərəfindən tərtib olunaraq müəssisəyə (sifarişçiyə) təqdim olunan akt (xidmətlərin göstərilməsinə dair akt) və ya xidmətlərin göstərilməsini təsdiq edən hesab-faktura, müəssisəyə tikinti-təmir işlərini görən podratçı (icraçı) təsərrüfat subyekti ilə bağlanılan «işlərin görülməsi haqqında» müqavilə, həmin müqaviləyə əlavə və dəyişikliklər, smetalar, podratçı tərəfindən tərtib edilərək təqdim olunan akt (görülən işlərin həcmini və dəyərini əks etdirən akt), malların (işlərin, xidmətlərin) alınması ilə bağlı malsatanlar (xidmət göstərənlər, iş görənlər) tərəfindən göndərilmiş elektron vergi hesab-fakturaları.

*3. Malların (işlərin, xidmətlərin) satış sənədləri.* Bura alıcılarla bağlanılan alqı-satqı müqaviləsi, həmin müqavilənin tərkib hissəsi hesab edilən protokollar, əlavələr və dəyişikliklər, müəssisədə (satıcıda) tərtib olunanaraq nüsxəsi alıcıya təqdim olunan qaimə-fakturanın əsli, malların müəssisədən (satıcıdan) təhvil alması üçün öz nümayəndəsinə alıcının verdiyi etibarnamənin əsas hissəsi, sifarişçi təsərrüfat subyekti ilə bağlanılan «xidmətlərin göstərilməsi haqqında» müqavilə, həmin müqaviləyə əlavə və dəyişikliklər, müəssisədə (icraçıda) tərtib edilərək təqdim olunan akt (xidmətlərin göstərilməsinə dair akt) və ya xidmətlərin göstərilməsini təsdiq edən hesab-faktura, müəssisəyə (podratçıya) tikinti-təmir işləri üzrə sifariş verən sifarişçi təsərrüfat subyekti ilə bağlanılan «işlərin görülməsi haqqında» müqavilə, həmin müqaviləyə əlavə və dəyişikliklər, smetalar, müəssisə (podratçı) tərəfindən tərtib edilərək təqdim olunan akt (görülən işlərin həcmini və dəyərini əks etdirən akt), müəssisə (satıcı, xidmət göstərən, iş görən) tərəfindən malların (işlərin, xidmətlərin) satışı ilə əlaqədar qarşı tərəfə göndərilən elektron vergi hesab-fakturaları.

*4. Əməkhaqqı sənədləri.* Bura işçilərlə bağlanılan əmək müqavilələri, həmin müqavilələrə əlavələr, işçi ilə bağlanılan tam maddi məsuliyyət haqqında müqavilə, işçinin işə götürülməsi ilə bağlı rəhbərliyin əmri, işçinin şəxsiyyət vəsiqəsinin surəti, işçinin sosial sığorta şəhadətnaməsinin surəti (şəhadətnamə işçiyə əvvəlki iş yerindən verildiyi halda), zəruri hallarda ixtisasını bildirən diplomun və ya digər ixtisas dərəcələrini bildirən sənədlərin surətləri, əmək kitabçası (əmək kitabçası işçiyə əvvəlki iş yerindən verildiyi halda), işçilərə mükafatların, yardımların və digər əmək ödənişlərinin verilməsi ilə əlaqədar əmrlər və qərarlar, əməkhaqqının hesablanması cədvəli, işə davamiyyət tabeli, əmək qabiliyyətinin müvəqqəti itirilməsi ilə əlaqədar xəstəlik vərəqəsi, əməkhaqqına güzəştlərin tətbiqi ilə əlaqədar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş (məcburi köçkün, əlil, veteran olduğunu bildirən) sənədlərin təsdiqlənmiş surətləri, gəlir vergisi və məcburi sosial sığorta haqqından başqa, əməkhaqqından digər tutulmaları təsdiq edən sair sənədlər (məhkəmə qərarları, əskikgəlmə ilə əlaqədar aktlar, əmrlər və s.).

**Davamı növbəti sayımızda**

## vergi taqvimi

| DEKABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | | 1 |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 |
| 23/30 | 24/31 | 25 | 26 | 27 | 28 | 29 |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**
20 dekabr - «(1-1)», «3», «4», «8», «10.1», «10.2»və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.
**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.
**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.
**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.
**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

# "ASAN xidmət"in əhatə dairəsi genişlənir

*Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində yaradılmış «ASAN xidmət» mərkəzləri dövlət orqanları tərəfindən göstərilən xidmətlərin vahid və əlaqələndirilmiş formada həyata keçirilməsini təmin edən qurumdur. Mərkəzlər dövlət qulluqçularının fəaliyyətində əhaliyə münasibətdə vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində yeni yanaşmanın formalaşdırılmasına, ölkədə dövlət qulluqçusu-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsinə xidmət edir.*

Hazırda Bakıda üç, Sumqayıtda isə bir «ASAN xidmət» mərkəzi fəaliyyət göstərir. Mərkəzlərin yaradılması ilə vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azaldılması, əhaliyə münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinə nail olunması, peşəkarlıq səviyyəsinin artırılması, dövlət strukturlarına etimadın daha da gücləndirilməsi, şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi müşahidə olunur.

«ASAN xidmət» mərkəzlərində 9 dövlət qurumunun xidmətləri təqdim edilir. Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, notariat fəaliyyəti, şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, ümumvətəndaşlıq pasportlarının verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, məhkumluq barədə arayışların verilməsi, daşınmaz əmlakla bağlı əməliyyatların qeydiyyatı, kommersiya hüquqi şəxslərin və vergi ödəyicilərinin qeydiyyatı, hüquqi və fiziki şəxslərə arxiv arayışlarının verilməsi, gömrük bəyannamələrinin, gömrük rəsmiləşdirmələri üçün sənədlərin qəbulu, Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə, habelə daimi yaşamaq üçün immiqrant statusunun əldə edilməsi ilə bağlı sənədlərin verilməsi, torpaq kadastrı məlumatları barədə arayışların verilməsi, dövlət orqanlarının göstərdikləri bütün xidmətlər üzrə informasiya xidmətinin həyata keçirilməsi və əmək pensiyalarının təyin edilməsi xidmətləri göstərilir.




«ASAN xidmət» mərkəzlərinin təsis edilmədiyi regionlardakı əhaliyə xidmətlərin çatdırılması və mərkəzlərə gəlmədən vətəndaşların xidmətlərdən yararlanmalarının təmin edilməsi üçün zəruri texnoloji avadanlıqlarla təchiz edilmiş irihəcmli xüsusi avtobuslar fəaliyyət göstərir. İndiyədək 37 rayona 21 məntəqədə «səyyar xidmət» göstərilmişdir.

«ASAN xidmət»lərin daha da asanlaşdırılması məqsədilə Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarı ilə təsdiq edilmiş «Elektron xidmət növlərinin Siyahısı»na bu günlərdə dəyişiklik edilib. Nazirlər Kabinetinin qərarına əsasən, dövlət elektron xidmətlərinin siyahısına yeni hissə (37.1) əlavə edilib. Həmin hissəyə əsasən, «ASAN xidmət»ə daha üç elektron xidmət növü əlavə olunacaq. Bunlar - informasiya sistemləri, informasiya ehtiyatları və elektron xidmətlərlə bağlı dövlət orqanları tərəfindən təqdim olunan layihələrə (təkliflərə) rəy verilməsi üçün müraciətin və sənədlərin qəbul edilməsi; «ASAN xidmət» mərkəzlərində göstərilən xidmətlərdən istifadə məqsədi ilə onlayn növbənin tutulması; «ASAN xidmət» mərkəzlərində göstərilən xidmətin nəticəsində təqdim edilməli olan hazır sənədlə bağlı məlumatın verilməsi xidmətləridir.

Bildirək ki, «onlayn növbə» xidməti bir müddət öncə «Elektron hökumət» portalına inteqrasiya olunub və yaxın günlərdə digər xidmətlərin də portala daxil edilməsi gözlənilir.

**AYTƏN**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Dekabr ayınadək olan son statistik göstəricilərə əsasən, **1 saylı «ASAN xidmət»** mərkəzinə fəaliyyətdə olduğu 313 gün ərzində 309456 müraciət daxil olub, **165529 müraciət** üzrə xidmət göstərilib.
- **2 saylı «ASAN xidmət»** mərkəzinə fəaliyyətdə olduğu 182 gün ərzində 216834 müraciət daxil olub, **179731 müraciət** üzrə xidmət göstərilib.
- **3 saylı «ASAN xidmət»** mərkəzinə 74 gün ərzində 67964 müraciət daxil olub, **56539 müraciət** üzrə xidmət göstərilib.
- **Sumqayıt «ASAN xidmət»** mərkəzinə fəaliyyətdə olduğu 202 gün ərzində 181072 müraciət daxil olub, **146086 müraciət** üzrə xidmət göstərilib.

beynəlxalq panoram

# Avropa Birliyinin qanunvericiliyi pozulur

*Avropa Birliyinin təklif etdiyi maliyyə əməliyyatlarına vergi (səhmlər və istiqraz vərəqələrinə 0,1%, törəmə alətlərinə 0,01%) Birliyin qanunvericiliyi ilə tərs-mütənasiblik yaradır.*

Bu nəticəyə maliyyə əməliyyatlarına vergi tətbiqinin hüquqi tərəflərini araşdıran Avropa Birliyinin hüquq xidməti gəlib. Maliyyə əməliyyatlarına vergi tətbiq edilməsini Avstriya, Portuqaliya, Belçika, Estoniya, Yunanıstan, Slovakiya, Sloveniya, Almaniya, Fransa, İtaliya və İspaniya olmaqla AB-nin 11 ölkəsi bu ilin əvvəlində təsdiq ediblər. Vergi gələn ildən qüvvəyə minməli və onu tətbiq edən ölkələrin büdcəsinə hər il təxminən 35 milyard avro gətirməlidir.

İtaliya artıq bu vergini mart ayında səhmlərə, sentyabr ayında isə yüksəktezlikli ticarətə və derivativlər (derivativ - qiyməti başqa bir baza maliyyə alətinin parametrlərinə əsaslanan ikinci növ maliyyə alətidir) üzrə əqdlərə tətbiq edib.

«Rezidentlilik prinsipi»nə əsasən, vergitutma əməliyyatların keçirilmə yerindən deyil, şirkətlərin ofislərinin yerləşdiyi ərazidən asılı olaraq tətbiq edilir. Hüquqşünasların rəyində qeyd edilir ki, bu, Avropa Birliyinin baza müqaviləsinə uyğun deyil. Yeni vergi xidmətlərin və kapitalın vahid bazar daxilində sərbəst yerdəyişməsinə mane olacaq.

Qeyd etmək lazımdır ki, yeni verginin tətbiqinin əsas təşəbbüskarı Almaniyadır. Bu ölkə maliyyə şirkətlərinin fəallığını azaltmaq istəyir. Verginin tətbiqini Avropa Komissiyası da dəstəkləyib. Avrokomissar Algirdas Semeta hesab edir ki, yeni vergi treyderlərin məsuliyyətini artıracaq.



# Yeni vergi maliyyə bazarına mənfi təsir göstərə bilər

*Qiymətli kağızlarla kreditləşdirmə üzrə Beynəlxalq Assosiasiya (ISLA) apardığı tədqiqatın nəticələrini açıqlayıb. Hesabatda göstərilir ki, Avropada geniş müzakirə olunan maliyyə əməliyyatlarına verginin tətbiqi qiymətli kağızlarla kreditləşdirmə əməliyyatlarının 65%-i üzrə gəlirlərin məbləğini sıfıra qədər azaldacaq. Bu isə nəticə etibarilə Avropa ölkələrinin maliyyə sənayesinin ümumi gəlirlilik səviyyəsini hər il 2 milyard avro aşağı salacaq.*

Hesabatda bildirilir ki, əgər yeni vergi tətbiq edilərsə, qiymətli kağızlarla kreditləşdirmənin indiki gəlirlilik səviyyəsini saxlamaq üçün əməliyatlar zamanı alınan komisyon haqların miqdarını 400%-ə qədər qaldırmaq lazım gələcək. Hazırkı müzakirələrə əsasən, qiymətli kağızlarla kreditləşdirmə əməliyyatları 0,1%-lik vergi müstəvisinə düşəcək.

ISLA-nın ekspertləri xüsusilə vurğulayıblar ki, qiymətli kağızlarla kreditləşdirmənin dəyərinin artması bütün hedc əməliyyatlarına (çox gəlirli mövqeləri götürməklə qısa alış, svop, derivativlər, proqram ticarəti və arbitraj kimi aqressiv strategiyalardan istifadə etməklə qısamüddətli bazar dəyişikliklərindən yüksək gəlir əldə etməyi nəzərdə tutan özəl investisiya əməliyyatları) və Avropa maliyyə bazarının ümumi vəziyyətinə mənfi təsir göstərəcək.

# Qazaxıstanda avtomobillər üçün vergilər artacaq

Hökumətin təsdiq etdiyi «2014-2016-cı illər üçün dövlət büdcəsi haqqında» Qanuna əsasən, iş həcmi üç litrdən çox olan avtomobillər üçün vergilər xeyli artacaq. Qanun layihəsini iqtisadiyyat və büdcə planlaşdırılması naziri Yerbolat Dosayev təqdim edib.

Beləliklə, ölkədə avtomobillər üçün vergilər bir neçə dəfə artacaq. Bu qanunun qəbuluna qədər iş həcmi üç litrdən çox olan avtomobillər üçün vergilər 15 AHG (aylıq hesablaşma göstəricisi - pensiya, müavinət və digər sosial ödəmələrin, habelə cərimələrin, vergilərin hesablanması və digər ödənişlərin tətbiqi zamanı hesablanma üçün istifadə olunan göstərici) təşkil edirdi.

Gələn ildən isə iş həcmi 3-3,2 litr olan avtomobillər üçün vergi 35 AHG, 3,2 litdən 3,5 litrə qədər həcmi ilə avtomobillər üçün 46 AHG olacaq, iş həcmi 3,5 litrdən 4 litrə qədər olan avtomobillərin sahibləri isə 66 AHG xərcləməli olacaqlar.

# Yuan dünya ticarətində avronu sıxışdırır



*Rusiyanın «Kommersant» qəzetinin şərhində bildirilir ki, Çin yuanı dünyadakı xarici ticarət dövriyyəsində istifadə olunma populyarlığına görə yapon yeninin və avronun önünə keçmişdir.*

Beynəlxalq banklararası SWIFT tranzaksiya sisteminin oktyabr hesabatında verilmiş məlumata görə, 2013-cü ilin oktyabrında yuanın nisbəti 8,66% artmışdır ki, bu da 2012-ci ilin əvvəli ilə müqayisədə dördqat çox deməkdir (o vaxt Çin valyutası ilə mal və xidmətlərin haqqının ödənilməsi cəmi 1,89% təşkil edirdi). Bu müddət ərzində dolların dövriyyədəki payı 85%-dən 81,1%-ə, avronun payı isə 7,9%-dən 6,6%-ə enmişdir. Yuandan istifadə üzrə Çindən (ödənişlərin 60%-i) başqa, Honkonq və Sinqapur da öndədir.

Yuanın populyarlığını dəstəkləyən yalnız bazar deyildir. 2008-2009-cu il maliyyə böhranından sonra Çin hakimiyyət dairələri yuanın ekspansiyası kursunu qəbul etdi. O vaxtdan Çin Xalq Bankı 19 ölkənin Mərkəzi Bankı ilə milli valyutalarla 300 milyard dollar dəyərində qarşılıqlı ticarət və investesiyalar üzrə svop-müqavilələr bağladı. SWIFT-in Asiya-Sakit okean regionundakı ödənişlər və bazarlar üzrə rəhbəri Frank de Perter yaranmış vəziyyəti Çinin ticarət partnyorlarının yuanla apardıqları sövdələşmələrin artması tendensiyası ilə izah etmişdir.

Maliyyə sahəsində isə əks mənzərə müşahidə olunur. Universal ödəniş vasitəsi kimi istifadə olunma tezliyinə görə (başqa sözlə, yalnız ticarətdə deyil, həm də maliyyə tranzaksiyalarında, banklardakı depozitlərin yerləşdirilməsində) əvvəllər olduğu kimi, yenə də avro və dollar öndədir. Bu əməliyyatlardakı pul həcmlərinin 34,69%-i avronun, 38,12%-i isə dolların payına düşdüyü halda, yuanın nisbəti vur-tut 0,84% təşkil edir. Maliyyə sahəsində Çin milli valyutasının daha geniş dairədə işləməsinə maneçilik törədən kapital məhdudiyyətləridir, bu maneə ucbatından investorlar yuan nominasiyalı qiymətli kağızları sərbəst şəkildə ala bilmirlər. Yeri gəlmişkən, Çin Mərkəzi Bankının rəhbəri Çjou Syaçuan tezliklə mövcud məhdudiyyətlərin aradan qaldırılacağını vəd etmişdir.

Qeyd edək ki, akkreditivlərin və ödəniş tapşırıqlarının tərtibi zamanı Rusiya rublu daha populyar olan valyutaların onluğuna daxil olmamışdır - rublun ticarətdəki payı cəmi 0,51% təşkil edir.

# İtaliya maliyyə tranzaksiyalarına vergi qoyub

*İtaliya yüksəktezlikli alqoritmik treydinqə vergi tətbiq edən ilk ölkə olub. Ölkənin Maliyyə Magistratlığı qiymətli kağızlar bazarında həyata keçirilən yüksəktezlikli alqoritmik ticarət əməliyyatlarına (HFT) 0,02% həcmində yeni verginin tətbiqini rəsmən bəyan edib. Vergi birbaşa iştirakçıların coğrafi baxımdan harada yerləşməsindən asılı olmayaraq, zaman intervalı 500 milli saniyə ilə həyata keçirilən əməliyyatlara tətbiq ediləcək.*

Ekspertlər hesab edirlər ki, yeni verginin tətbiqi milli qiymətli kağızlar bazarını «tərpədə» bilər, çünki yüksəktezlikli treydinq bazarda qiymətəmələgətirmə və likvidliyin saxlanması mexanizmi kimi çıxış edir. Mümkün mənfi təsirlərin azaldılması məqsədi ilə yeni vergi vasitəçilərə tətbiq edilməyəcək. Hökumət yalnız gələcəkdə belə vasitəçilərə aid ediləcək bazar iştirakçılarının müəyyən olunmasına müəyyən məhdudiyyətlər qoyacaq.



Yüksəktezlikli treydinq - qiymətli kağızların bazar mövqelərini 1 dəqiqə ərzində bir neçə yüz dəfə dəyişmək imkanı verən alqoritmik əməliyyatdır. Belə əməliyyatlar zamanı çox cüzi əlavə gəlir məbləği yaranır.

krossvord



**Yuxarıdan aşağı:**
1. Cümlənin baş üzvlərindən biri; 2. Fotoaparat markası; 3. Rusiya Federasiyasında çay; 4. Simli kvartet üçün simfoniya və opera yazmış fransız bəstəkarının soyadı (1734-1829); 5. Vaxtilə bəzi ölkələrin inzibati ərazi bölgüsündə tətbiq edilmiş və hal-hazırda da bəzi ölkələrin inzibati ərazi bölgüsündə tətbiq edilən inzibati ərazi vahidi; 6. Avtobilin kuzov növü; 7. Böyük Britaniyanın paytaxtı London rəsədxanasından keçən meridian. Bu meridian sıfırıncı meridian adlanır; 13. Türk, monqol və altay şamanizmində və xalq inancında müqəddəs enerji; 14. Elementlərin dövri sistemində 5-ci element; 15. Hərbi məqsədli beşguşəli qala formasında tikili; 16. İsveçrədə yaranmış, Fransa və Almaniya ədəbiyyatı və rəssamlığında geniş yayılmış modernist cərəyan; 18. Alman fizikinin soyadı (1882-1945). İonlaşma radiasiyasını ölçə bilən detektoru yaradıb (1908); 22. Hürufilik təriqətinin əsasını qoymuş alim, şair, filosof (1339-1401); 23. Respublikamızın şimalında şəhər; 24. Məşhur ABŞ yazıçısının soyadı (1947); 25. Kənar sözünün antonimi.

**Soldan sağa:**
1. Quba rayonunda kənd. Qafqaz Albaniyasının qədim tayfalarından, Şahdağ xalqlarından birinin tarixi məskəni; 5. Eşitmə orqanı; 8. Qazaxıstanda çay; 9. Vudu inanclarına görə ölümsüz insan; 10. Optik diapazonda elektromaqnit şüalanmanın keyfiyyətli subyektiv xarakteristikası; 11. Qədim Misir mifologiyasına görə səhra, şər və ölüm tanrısı; 12. Qara dənizin şimal-şərqində sahəsi 37,7 min km$^2$, uzunluğu 240 km olan dəniz; 15. Türkiyənin Muğla əyalətində şəhər; 17. Məşhur «Ovod» əsərinin müəllifinin soyadı (1864-1960); 19. Əsl adı Müslihiddin Müşrif ibn Abdulla olan orta əsrlər fars ədəbiyyatında qəzəl janrının ən görkəmli nümayəndələrindən biri; 20. Günəş sistemində üçüncü planet; 21. 1969-cu ildə yaradılmış kompüter əməliyyat sistemi; 26.Rusiya, Monqolustan və Çinin şimalında geniş yayılmış simli musiqi aləti; 27. ABŞ-ın 20-ci prezidenti (1831-1881); 28.Azərbaycanın fantast yazıçısının adı; 29. Fəaliyyətində reallığı nəzərə alan şəxs.

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Gilan; 2.Yaqub; 3.Zeta; 4.Neptun; 5.Xobi; 6.Mustanq; 7.Ələddin; 13.İks; 14. Key; 15.Bolivar; 16.Miçiqan; 18.Maqnum; 22.Bakue; 23.Astma; 24.AFFA; 25.Ozon.

**Soldan sağa:** 1.Göyəzən; 5.Xəmsə; 8.Loqotip; 9.Bəsrə; 10.Nəbi *(Xəzri)*; 11.Aut; 12.Sand *(Jorj)*; 15.Bamako; 17.Reyqan *(Ronald)*; 19.Leço; 20.Mat; 21.ABBA; 26.Vaqif; 27.Nəzakət; 28.Renta; 29.Mandela *(Nelson)*.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev
*anar.eliyev@taxes.gov.az*

**Baş redaktor müavini:** Məti Osmanoğlu

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

**Ünvan:** AZ 1141, Bakı ş., Hüseyn Cavid pr., 81

**Telefon:** 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

**Tiraj: 15000**

idman

# "Gələcəyin olimpiyaçıları" turniri

*Dekabrın 14-də Tofiq Bəhramov adına Respublika stadionunun güləş zalında qızlar, sərbəst və yunan-Roma güləşi üzrə yeniyetmələr arasında keçirilən «Gələcəyin Olimpiyaçıları» adlı açıq respublika turniri başa çatmışdır.*

Yarışın son günü yunan-Roma güləşi üzrə 98 idmançı birincilik uğrunda mübarizə aparmışdır.

Turnirdə Araz Şükürzadə (32 kq), Mirsirac Həsənli (35 kq), Şükür Əhmədov (38 kq), Elvin Babayev (42 kq), Cavidan Cavadov (47 kq), Sənan Abdullazadə (53 kq), Samir Bayramov (59 kq), Heydər Fərmanov (66 kq) və Bəhruz Həziyev (73 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxmışlar.

Turnirin məqsədi Azərbaycanda qadın güləşi, sərbəst və yunan-Roma güləşlərinin inkişafına və kütləviliyinə nail olmaq, ehtiyat qüvvələri aşkar etmək və yarışın nəticələrinə əsasən perspektivli idmançıların yığma komandaya cəlb edilməsindən ibarətdir.

# Dünya Kuboku yarışları başa çatıb

*Bakıdakı «Sərhədçi» Olimpiya İdman Mərkəzində qarışıq döyüş növləri (MMA) üzrə Dünya Kuboku yarışlarının final mərhələsi keçirilmişdir.*

Yarışda Azərbaycan, İspaniya, Qazaxıstan, Gürcüstan, Rumıniya, Tacikistan, Rusiya və Belarus yığmaları birincilik uğrunda mübarizə aparmışlar. Hər komanda beş çəki dərəcəsində idmançı ilə təmsil olunmuşdur.




Yarışın final görüşü Qazaxıstan və Rusiya milli komandaları arasında keçirilmişdir. Rəqibini 3:2 hesabı ilə məğlub edən Rusiya millisi Dünya Kuboku yarışlarının final mərhələsinin qalibi olmuşdur.

Azərbaycan yığması yarışı bürünc medalla başa vurmuşdur. Yarışdan sonra Dünya Qarışıq Döyüş Növləri Assosiasiyasının prezidenti Vadim Finkelşteyn, Azərbaycan Kikboksinq Federasiyasının prezidenti Adil Əliyev və MMA Liqasının fəxri prezidenti Rövşən Həsənov ölkəmizdə idmana göstərilən dövlət qayğısından danışmış, idmançılarımızın beynəlxalq yarışlarda qazandıqları nailiyyətləri yüksək qiymətləndirmişlər.

# "Synergy Baku" İspaniyada



*Azərbaycanın ilk peşəkar velosiped komandası «Synergy Baku» yeni mövsümə hazırlıq üçün İspaniyanın Kalpe şəhərini seçmişdir.*

Azərbaycan Velosiped İdmanı Federasiyasından verilən məlumata görə, komandaya yeni qoşulmuş velosipedçilər hər gün saatlarla məşq edir, bir-birləri ilə ünsiyyətdə olmaqla uyğunlaşma prosesi keçirlər. Komandanın baş meneceri David Mcquaid bildirmişdir ki, kollektiv üzvləri arasında xoş əhval-ruhiyyə hökm sürür, üstəlik Meksikada keçirilən Dünya Kuboku yarışlarında Avstraliya millisinin heyətində 2 qızıl medal qazanan Lük Deyvisonun bu uğuru hamını sevindirmişdir: «Mövsümə bu nəticə ilə başlamaq, sözsüz ki, bizim üçün çox yaxşı haldır və ümid edirik ki, bu belə də davam edəcəkdir».

Komandanın idman direktoru Ceremi Hantın sözlərinə görə, hamının bir yerə toplaşaraq təlim-məşq prosesində iştirak etməsi olduqca müsbət haldır. Artıq «Synergy Baku» üzvlərinin 2014-cü ildəki yarışlarda istifadə edəcəkləri idman ləvazimatları da sifariş edilmiş və yaxın vaxtlarda velosipedçilərə çatdırılacaqdır.

# "Azərreyl" dörddəbir finalda

*Qadın voleybolçulardan ibarət komandalar arasında Avropa Voleybol Konfederasiyası (CEV) kuboku yarışlarının səkkizdəbir final mərhələsinin cavab oyunları keçirilmişdir.*

Bakının «Azərreyl» komandası səfərdə Çexiyanın «Olomuts» kollektivinin qonağı olmuşdur. Maraqlı idman mübarizəsi şəraitində keçən görüş «Azərreyl»in 3:2 hesablı qələbəsi ilə yekunlaşmışdır. Xatırladaq ki, Bakıda keçirilmiş ilk oyunda da Bakı təmsilçisi rəqibinə qalib gəlmişdi - 3:0. İki oyunun nəticəsinə əsasən «Azərreyl» komandası CEV kuboku yarışlarının dörddəbir final mərhələsinə yüksəlmişdir.

mozaika

## Yeni havatəmizləyici qurğu

texnologiya

*«Airocide» adlı yeni qurğu kosmik stansiyalarda havanın təmizlənməsi üçün istifadə olunan texnologiyalar əsasında hazırlanmışdır.*



Məsələ burasındadır ki, beynəlxalq kosmik stansiyalarda tənəffüs üçün əlverişli atmosfer yaradan bitkilər oksigendən əlavə, insan orqanizmi üçün zərərli olan etilen də buraxır.

Havanı bu zərərli maddədən xilas etmək üçün təmizləyici qurğudan istifadə olunur.Bunu əsas götürən NASA mühəndisləri «Airocide» qurğusunu yaratmışlar.

Yeni qurğu evi havadamcı yolu ilə ötürülən bütün virus və bakteriyalardan etibarlı müdafiə edəcəkdir. Bununla da hava daha təmiz olacaqdır. Bundan başqa, astma xəstəliyi olanlara öz evlərində «Airocide» qurmaq tövsiyə olunur, çünki hava heç bir kimyəvi reagentdən istifadə etmədən süzgəcdən keçirilir.

## Mühafizəçi robot

*«Nightscope» şirkətinin alimləri görünüşcə məşhur astromexanik «R2-D2» droidinə oxşar mühafizəçi robot hazırlayır.*



Mühafizəçi robotun hündürlüyü 1,5 metrdir, o, videokamera, teplovizor, lazer məsafəölçəni, radar, havanın keyfiyyətini ölçülməsi cihazı və mikrofonla təchiz edilmişdir. Robotun avtonom istifadə imkanı onun özəlliyidir. Bundan başqa, o, ölçüləri öncədən operator tərəfindən təyin edilmiş sahədə öz vəzifələrini icra edə bilər.

Yaxın gələcəkdə istehsalçılar bu droidi sensorların köməyi ilə şəxsləri tanımaq və onun silahlanması imkanını qiymətləndirmək qabiliyyəti ilə təchiz etməyi planlaşdırırlar. İstehsalçıların hesablamalarına görə, məktəblərə və idarələrə sözügedən mühafizəçi robotların xidmətindən istifadə etmək onlara gözətçi tutmaqdan daha ucuz başa gələcəkdir.

## Gövdə hüceyrələrindən yetişdirilən böyrək toxuması

elm

*Yapon tədqiqatçılar qrupu insanın gövdə hüceyrələrindən böyrək toxuması yetişdirməyə nail olmuşlar.*

Mütəxəssislərin qənaətinə görə, bu kəşf transplantasiya üçün böyrəklərin yetişdirilməsinə şərait yarada bilər.

Yaponiyanın Kumamoto Universitetinin professoru Ryuiti Nişinakamuranın rəhbərlik etdiyi alimlər qrupu siçanlar üzərində böyrəyin formalaşması prosesini tədqiq etmişdir. Məlum olmuşdur ki, böyrəyin yaranmasında «aktivin» adlanan zülalın da daxil olduğu beş element iştirak edir.

Tədqiqatçılar müxtəlif mərhələlərdə bu beş elementi insanın plüripotent gövdə hüceyrələrinə əlavə etmişlər. Nəticədə onlar iki millimetr ölçüdə böyrək toxumasının üçölçülü nümunəsini yetişdirə bilmişlər. Bu toxuma böyrəyin əsas hissələrini, o cümlədən qlomerulu və kanalları özündə birləşdirir. Əldə edilmiş struktur insan böyrəyi kimi sidik ifrazetmə qabiliyyətinə malikdir.

## Dünyanın ən uzun tuneli

maraqlı

*İsveçrədə əfsanəvi Alp dağlarının altından keçən Qotard tunelində dəmiryol relslərinin qurulması prosesi artıq başa çatmışdır. Sen-Qoptard ərazisində tikilən 57 kilometrlik tunel dünyanın ən uzun tunelidir.*



Tunelin tikintisinə 1993-cü ildən başlanılmışdır. İnşaat işlərində 2500-dək fəhlə və mühəndis iştirak etmişdir.

Layihənin özünə təqribən 7,4 milyard avro xərclənmişdir. İndiyədək tunelin əsas işləri başa çatmışdır. Onun qaydaya salınması, təmiri, burada zəruri avadanlığın quraşdırılması və kommunikasiyaların çəkilməsinə daha 2 il vaxt tələb olunur. Tunelin gündə 200-250 qatarı qəbul edib yola salmaq imkanı olacaq.

## Bank öz səhmlərini dörd aylıq körpəyə «satıb»

*İspaniyanın «Novagalicia Bank»ın nümayəndələri qəribə fırıldağa əl ataraq 4800 avroluq səhmlərin satışını dörd aylıq uşağın adına rəsmiləşdirmişlər.*

Körpənin valideynlərinin bundan xəbəri olmamışdır və onlar qəflətən məhkəməyə çağırıldıqda şoka düşmüşlər. Mətbuatın yazdığına görə, bank rəhbərliyi bunun səhv olduğunu bildirsə də, polis ona inanmır.

«Novagalicia Bank»ın əməkdaşları nəinki körpənin adına xeyli məbləğ köçürmüş, həm də bütün lazımi sənədləri rəsmiləşdirmişlər.

Maraqlıdır ki, sənədlərdə uşağın valideynlərinin adları göstərilir, lakin məbləğ nədənsə onların bu il doğulmuş körpəsinin adına qeydə alınmışdır.

Polis bank rəhbərliyini fırıldaqçılıqda şübhəli bilir. Bununla belə, məhkəmə qərara almışdır ki, təhqiqatın aparıldığı müddətdə bank yanlış tranzaksiyanı ləğv etsin və bütün məhkəmə xərclərini ödəsin. Bu xərclər «saxta» köçürmə məbləği ilə müqayisə oluna bilər.

**Müdriklər deyib ki...**



***Əndazəsiz özünəvurğunluq və özündənrazılıq şəxsi ləyaqət hissinin əlaməti deyildir.***

**Fyodor Dostoyevski (1821-1881)**





ELAN

**«Vergilər» qəzetinə 2014-cü il üçün abunə kampaniyası davam edir**

Azərbaycanın bütün şəhər və rayonlarında «Vergilər» qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) **20 manat 80 qəpik** təşkil edir.
Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

VÖEN: 1300327481; H/h AZ46ATAZ01200012258000138090; «Atabank» ASC; Kod:507581
VÖEN: 9900006651; M/h: AZ50NABZ01350100000000032944; SWIFT: BIK ATAZAZ22